www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-24 iyul 2017-ci il Şənbə № 153 (6767) Qiyməti 60 qəpik

**Xəbər**

## Silahlı insidentdə adı keçən idmançı Bakıda maşınla adam öldürdü

yazısı səh.13-də

**Gündəm**

### Prezidentlərin görüşünü mümkünsüz edən səbəblər



Separatçıların "seçki" şousu danışıqları mənasız edib; ABŞ Dövlət Departamenti separatçılara tərs şapalaq vursa da, həmsədrlər susur...

yazısı səh.11-də

### Milli mətbuatımızın yaranmasından 142 il keçir

yazısı səh.3-də

### Kəlbəcər girovları Azərbaycanda həbsdə olan ermənilərlə dəyişdirilə bilər - gözlənti

yazısı səh.7-də

*Mübariz Qurbanlı:*

### "Ziyalılarımız İslama qarşı yox, xurafata qarşı mübarizə aparıb"

yazısı səh.10-da

### Hökumət dövlət büdcəsi hesabına ABB-ni xilas edir - ekspert rəyi

yazısı səh.13-də

### Heydər Camalın vəfatının və dəfninin müəmmaları - Həmid Herisçinin yazısı

yazısı səh.15-də

### Həbsdəki xanım general kimləri və niyə dinlətdirib - "MTN işi"ndə yeni gəlişmə

yazısı səh.3-də

### Varlıların cinayətləri gizlədilir - Faiq Seyidovun oğlunun yeni istintaqı olacaqmı?

yazısı səh.4-də

### Etibardan sui-istifadə, himayədar məmur, ədalətsiz məhkəmə - bir ortaqlığın süqut etməsi əhvalatı...

yazısı səh.14-də

## Qərb qonşumuz üzərindən Azərbaycana şimal təhlükəsi

# KREMLİN QORXULU "ÜÇÜNCÜ QARABAĞ" SSENARİSİ

Moskva NATO-ya can atan Gürcüstanı ram eləmək üçün Cavaxetiya ermənilərini ayağa qaldıra bilər; son bir ildə əlaqələri xeyli istiləşən Türkiyə Rusiyadan əsən "soyuq küləyi" önləyə biləcəkmi? Ekspertlər deyir ki...




yazısı səh.5-də

## Dönərxanalardan gələn təhlükə: brüselliyoz, qurd xəstəlikləri və xərçəng...

İstehlakçılara hələ də mənşəyi bilinməyən ətdən hazırlanan dönərlər satılır; satıcı alıcıları əmin, ekspertlər isə xəbərdar edir...

yazısı səh.12-də



Erkan Özoral

### "Yeni Müsavat"ın qonağı olan Türkiyə səfiri önəmli açıqlamalar verdi

yazısı səh. 8 və 9-da



### Lapşin Rusiyaya təhvil verilir?

yazısı səh.7-də



### Ermənistanda konsert verməyə hazırlaşan Ququşa sərt təpkilər gəldi

yazısı səh.7-də

# QHT sədrinin qardaşı hakim qarşısında

## Atasının üstünə benzin tökərək yandırıb



**81 yaşlı atasını amansızlıqla öldürən şəxsin məhkəməsi başlayıb. Təqsirləndirilən şəxs atasının üstünə benzin tökərək yandırıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində atasını öldürməkdə təqsirləndirilən İlyas Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.

Hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. İlyas Mehdiyev məhkəmədə özünü təqsirli bildiyini, atasını öldürdüyünü etiraf edib. Məhkəmənin baxış iclası iyulun 24-nə təyin edilib.

Hadisə bu il yanvarın 31-də baş verib. Mərhum İmdad Mehdiyevlə oğlu İlyas Mehdiyev ailə münaqişəsi zəminində mübahisə ediblər. Sonda İlyas Mehdiyev atasının üstünə benzin tökərək, onu yandırıb. İlkin məlumata görə, cinayəti törədən 31 yaşlı İlyas Mehdiyev içkili olub. O, atasından pul tələb edib. Pulu olmadığını deyən ahıl kişi ilə oğul arasında davası düşüb. Sonda da dəhşətli qətl baş verib.

Mərhum 81 yaşlı İmdad Mehdiyevin digər oğlu Mehdi Mehdiyevdir. O, Əfv etmə komissiyasının üzvü, "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədridir.

Qeyd edək ki, İlyas Mehdiyev Cinayət Məcəlləsinin 120.2.2. (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və 186-cı (əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddələri ilə təqdirli bilinir.

❑ **İlkin MURADOV**

# Şiddətli istilər davam edəcək

**Azərbaycanda sabaha olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyulun 22-də hava şəraiti yağmursuz olacaq. Mülayim şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeronda gecə 22-25° isti, gündüz 33-38°, bəzi yerlərdə 40° isti, Bakıda gecə 23-25° isti, gündüz 36-38° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 557 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 65-75%, gündüz 40-50% olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 26-27°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28°, Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz olacaq. Ayrı-ayrı yerlərdə arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 27-32° isti olacağı gözlənilir.

# Silahlı insident: hotelə gəlib atəş açdı

**Masazır qəsəbəsində silahlı insident baş verib. Musavat.com Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, iyulun 20-də saat 1:00 radələrində üzərində dövlət qeydiyyat nişanları olmayan "Lexus" markalı avtomobildə Abşeron rayonu ərazisindəki hotellərdən birinin qarşısına gələn naməlum sürücü ilə oranın mülki gözətçisi arasında mübahisə baş verib.**

Sürücü avtomobildə hadisə yerini tərk etdikdən 15-20 dəqiqə sonra geriyə qayıdıb odlu silahdan havaya atəş açıb, avtomobilini arxaya verərkən orada dayanan "Toyota" markalı avtomobili vurub və oranı tərk edib.

Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobilin dövlət qeydiyyat nişanları müəyyən edilib və hadisəni törətməkdə şübhəli bilinən Masazır qəsəbə sakini Ramil Mirzəyev tutulub. Ondan "Stoger" markalı ov tüfəngi götürülüb.

Abşeron RPİ tərəfindən araşdırma aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# İcra Hakimiyyətində mətbuat günü qeyd edildi



**22 iyul Milli Mətbuat günü münasibətilə Qaradağ Rayon İcra Hakimiyyətinin konfrans zalında tədbir keçirilib. Musavat.com-un məlumatına görə, tədbirdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, aparatın məsul işçiləri, ölkənin aparıcı qəzet, televiziya və elektron informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı **Süleyman Mikayılov** milli mətbuatımızın yaranmasından 142 il ötdüyünü bildirərək, bütün mətbuat nümayəndələrini ürəkdən təbrik edib:

"142 illik tarixi olan Azərbaycan milli mətbuatı özünəməxsus ənənələr yaradıb. Mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabidən başlayaraq, günümüzə qədər böyük qələm ustaları milli təfəkkürün inkişafı üçün misilsiz xidmətlər göstərərək xalqımızın maarifləşməsinə böyük töhfələr veriblər. Ümummilli lider Heydər Əliyev demokratik dövlət quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu daim yüksək qiymətləndirərək, Azərbaycanda senzuranın ləğvi və bir sıra digər tədbirlərlə mətbuatın inkişafına böyük dəstək verib".

**Natiq daha sonra deyib:** "Ulu öndər Heydər Əliyevin siyasi iradəsi və səyləri nəticəsində mətbuata, söz azadlığına qoyulan bütün süni maneələrin aradan qaldırılaraq, kütləvi informasiya vasitələrinin işini tənzimləyən, beynəlxalq standartlara uyğun qanunvericilik bazasının təkmilləşdirilərək "Kütləvi informasiya vasitələri haqqında" Qanun təsdiq olunub. Bu gün də hörmətli prezidentimiz cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində mətbuatın maddi-texniki bazası gücləndirilib. Mətbuatda çalışan insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə və daha geniş miqyasda davam etdirilir. Dövlət başçımızın sərəncamına əsasən KİV işçiləri üçün mərhələli şəkildə yaşayış binalarının inşa edilərək istifadəyə verilməsi bunun bariz nümunəsidir".

**Tədbirin sonunda İcra Hakimiyyəti adından KİV nümayəndələrinə hədiyyələr təqdim olunub.**

❑ **Əli RAİS**




# Bakıda ilk dəfə olaraq ayrıca balıq bazarı yaradılacaq

**"Pirallahı rayonunda yeni iş yerləri və istehsal sahələri yaradılacaq". Report xəbər verir ki, bunu Azərbaycan prezidenti İlham Əliyev iyulun 21-də Bakının Pirallahı qəsəbəsinin içməli su təchizatı layihəsinin açılış mərasimində bir qrup sakinlə görüşdə deyib.**

Dövlət başçısı qeyd edib ki, rayonda balıq bazarı yaradılacaq: "Bu günə qədər Bakı şəhərində balıq bazarı olmayıb. Bu böyük bir çatışmazlıqdır. Çünki dəniz kənarında yerləşən şəhərlərin əksəriyyətində balıq bazarları olur. Bu, həm vətəndaşlara xidmət edir, eyni zamanda bu balıq bazarları bir növ turizm zonasına çevrilir".



# İranda toqquşma: azərbaycanlı polkovnik öldürüldü

**İranın şimal-qərbində terrorçularla İran İslam İnqilabı Keşikçiləri Korpusu arasında toqquşma olub. Axar.az xəbər verir ki, insident zamanı 3 terrorçu öldürülüb, 4 nəfər isə yaralanıb. Toqquşma zamanı həmçinin SEPAH-ın polkovniki Yasin Qənbəri də döyüş zamanı həlak olub.**

Sepahın Həmzə adlı 3-cü ordu qərargahından verilən məlumatda isə öldürülən terrorçular xarici dövlətlərin casus şəbəkəsinin muzdluları adlandırılıb. Onların hansı qrupa və ya terror təşkilatına bağlı olduqları barədə məlumat verilməyib. Bəyanatda həmçinin terrorçu dəstənin sağ qalan üzvlərinin toqquşmadan sonra sərhədi keçərək qaçmağa nail olduqları bildirilib.

Qeyd edək ki, Həmzə qərargahı Qərbi Azərbaycan, Kurdüstan və Kirmanşah vilayətlərinin təhlükəsizliyinə cavab verir.




# OPEC+ anlaşması ləğv oluna bilər

**OPEC və ona üzv olmayan ölkələrin neft nazirlərinin iyulun 24-də Sankt-Peterburqda (Rusiya) keçiriləcək Monitorinq Komitəsinin iclası böyük əhəmiyyət daşıyır. OPEC 30 noyabr Vyana anlaşmasının fiaskoya uğradığını artıq anlayır. Qlobal neft ehtiyatları azalmır, anlaşmada istisna təşkil edən Liviya və Nigeriya, həmçinin ABŞ-da şist neft hasilatı isə artmağa davam edir.**

OPEC hazırda ABŞ şist neft hasilatçılarına təsir edə bilmir, lakin Liviya və Nigeriyaya təsir imkanı çətin də olsa qalır. Lakin ən əsası odur ki, Liviya və Nigeriya hasilatını məhdudlaşdıracağı təqdirdə belə, qiymətlər yüksələcək və bu zaman da ABŞ hasilatı daha da artıracaq. Yəni neft bazarında vəziyyət kritik həddə çatıb.

Həmçinin bildirmək lazımdır ki, Liviya və Nigeriyanı da razı salmaq çətin məsələdir. Bu iki ölkə daxili problemlər səbəbindən kəskin maliyyə ehtiyacı ilə üzləşib. Həmçinin Ekvador və Qazaxıstanın hasilat kvotalarına riayət etməməsi OPEC+ anlaşmasının gələcəyi üçün təhlükə yaradıb. Belə ki, bu ölkələrin hasilatı artırması digər ölkələri də belə bir addım atmağa sövq edə bilər. Bu halda OPEC+ anlaşması ləğv ediləcək və qiymətlərin 20 dollar/barelə qədər düşməsi ehtimalı yaranacaq.

"Report"un analitik qrupu bildirir ki, sammitdə Liviya və Nigeriyanın anlaşmaya qoşulması qərara alınarsa, neft qiymətlərinin qısa müddətdə 50 dollar/bareli keçdikdən sonra yenidən 45 dollar/barel səviyyəsinə qayıdacağı proqnozlaşdırılır.

# Gəncədə ağır qəza - ana öldü, körpəsi yaralandı

**Gəncədə ölümlə nəticələnən yol qəzası baş verib. APA-nın verdiyi məlumata görə, hadisə şəhərin Yeni Gəncə qəsəbəsində qeydə alınıb. "Mercedes" markalı avtomobil yolu keçən 1993-cü il təvəllüdlü Bağırova Dilarə Məzahir qızı və onun 4 aylıq oğlan uşağını vurub. Məlumata görə, qadın hadisə yerində dünyasını dəyişib. Onun övladı isə özəl xəstəxanaların birinə aparılıb.**

Qeyd edək ki, "Mercedes" qadını və onun uşağını vurduqdan sonra "Daewoo" markalı avtomobilə çırpılıb. Faktla bağlı Gəncə Şəhər Baş Polis İdarəsində araşdırma aparılır.

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017




# Həbsdəki xanım general kimləri və niyə dinlətdirib - "MTN işi"ndə yeni gəlişmə

**Ləğv edilmiş MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.**



Musavat.com xəbər verir ki, cinayət işi Bakı Hərbi Məhkəməsinin sədri, hakim Həbib Həsənovun sədrlik etdiyi kollegiyada Sabunçu Rayon Məhkəməsinin inzibati binasında araşdırılıb. Məhkəmə prosesi qapalı keçirilib. İclasda sahibkarlar və digər vətəndaşların qanunsuz dinlənilməsi epizodu üzrə sabiq MTN və DTX əməkdaşları ifadə veriblər. Zərərçəkmiş şəxslər bu iş üzrə həbsdə olan MTN-çiləri tanımadıqlarını deyiblər.

Dinləmə epizodları digər cinayət işi üzrə təqsirləndirilən generallar - Akif Çovdarov və Elçin Quliyevlə bağlı olub. İttihamda yazılır ki, zərərçəkmişlər bu iş üzrə təqsirləndirilən Teymur Quliyev və Natəvan Mürvətovanın idarəsi tərəfindən dinlənilib. Buna görə də həmin şəxslər bu prosesdə də dindiriliblər.

Məhkəmənin növbəti iclası iyulun 27-də davam etdiriləcək.

İttihama görə, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natavan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun 2004-2015-ci illər ərzində mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Dəstə üzvləri sahibkarlara psixi və fiziki zorakılıq göstərməkdə, həbsə alma və barələrində rüsvayedici məlumatlar yayma hədəsi ilə külli miqdarda pul tələb etməkdə ittiham edilirlər.

❑ İ.MURADOV

# Bu gün jurnalistlərin peşə bayramıdır




## Milli mətbuatımızın yaranmasından 142 il keçir

**Bu gün Azərbaycan milli mətbuatının yaranmasından 142 il ötür. Azərbaycan ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir.**

1832-ci ildə "Tiflis əxbarı" qəzeti və 1845-ci ildə "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfinin xəbəri" adlı Azərbaycan dilində buraxılan əlavə, milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlardandır. Bu nəşrlər rəsmi bülleten xarakteri daşıdığından onlar hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi yalnız 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşir, redaktoru və korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Nəşrin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi.

Lakin rus-türk müharibəsi dövründə "türk-tatar" dilində nəşr edilən qəzetin arxa cəbhədə oxunmasından ehtiyat edərək Rusiya hökuməti 29 sentyabr 1877 il tarixində "Əkinçi"nin rəsmi nəşrinin dayandırılması barədə fərman verib. Bu işdə "Əkinçi"nin mürəttibi erməni Minasovunin donosları da öz işini gördü.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi "Şərqi-rus" qəzeti oldu. "Şərqi-rus" Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi.

Qəzet ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" işıq üzü gördü. Bu jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Onun milli oyanış prosesinə xidmət edən haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, Türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi.

XXI əsrdə Azərbaycanın müstəqilliyini bərpa etməsi ilə ölkədə həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı. Ötən illər ərzində Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayıb.

Hazırda Azərbaycanda 200-dən çox qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olub.

2013-cü il iyulun 22-də Azərbaycan prezidentinin sərəncamı ilə paytaxtın Bibiheybət qəsəbəsində KİV işçiləri üçün inşa edilmiş 156 mənzillik bina istifadəyə verilib. Elə həmin gün ölkə rəhbərinin iştirakı ilə jurnalistlər üçün daha bir yaşayış binasının təməli qoyulub ki, onun da açılışı məhz milli mətbuatımızın yaranmasının 142-ci il dönümünə, yəni bugünlərə təsadüf edib. İyulun 20-də ölkə başçısının da iştirakı ilə jurnalistlər üçün yeni tikilən binanın açılış mərasimində 255 nəfər mətbuat nümayəndəsinə mənzil təqdim olunub. Eyni zamanda elə həmin günü prezidentin iştirakı ilə jurnalistlər üçün üçüncü binanın da təməli qoyulub.

Onu da qeyd edək ki, bu gün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 142-ci ildönümü ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərini də mükafatlandıracaq.

**Milli Mətbuat günü münasibətilə bütün jurnalist həmkarlarımızı təbrik edir, onlara yeni uğurlar arzulayırıq.**

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017


Rəşad Qafarov

# Çexiyadakı səfirliyimiz iş adamının qətli haqda: “İstintaqın nəticəsini gözləyirik”

## Rəşad Qafarovun qətlinin üstü açılmaq bilmir; öldürülən iş adamının ailəsi Azərbaycana qayıdıb...

**Çexiyanın paytaxtı Praqada öldürülən azərbaycanlı iş adamı Rəşad Qafarovun qətlinin üstü bağlı olaraq qalır. R.Qafarov bu il iyunun 30-da öz avtomobilində ölü tapılmışdı. “TERN Transport & Trading CZ” şirkətinin baş direktoru Rəşad Qafarovun qətli ilə bağlı saxlanılanlar olsa da, bu günə qədər onların adları açıqlanmır.**

R.Qafarovun müavini olmuş Mübariz Süleymanovla dünən yenidən əlaqə saxladıq. Bildirdi ki, onlara hələlik istintaqda hər hansı bir irəliləmə haqda bilgi verilməyib. Qeyd edək ki, M.Süleymanov qəzetimizə ötən açıqlamasında demişdi ki, şübhəlilərin kimliyi, ad-soyadları gizli saxlanılır. M.Süleymanov deyib ki, qətlin motivi haqda da konkret məlumata malik deyillər. R.Qafarovun qətlindən sonra həyat yoldaşı övladları ilə birgə Azərbaycana qayıdıb. Onun cənazəsi Bakıya gətirilərək Bilgəh qəsəbə qəbiristanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, R.Qafarov qətlinə qədər ailəsi ilə birgə Çexiyada yaşayırdı. 2 övladı da orada təhsil alırdı.

Qətldən sonra qanlı cinayətin R.Qafarovun işgüzar fəaliyyəti və ya şəxsi münasibətlər zəminində baş verməsinin müəyyənləşdirilməsi istiqamətində iş aparılır. R.Qafarovun fəaliyyətinə bələd olanlar bildirirlər ki, onun işgüzar fəaliyyəti ilə bağlı hər hansı bir problem olmayıb. Şəxsi müstəvidə də kimlərləsə mübahisəsi, toqquşması haqda məlumat yoxdur.

R.Qafarov “TERN Transport & Trading CZ” və “TERN Transport & Trading AZ” şirkətlərinə rəhbərlik edib. Birinci şirkət əsasən Avropa ərazisində beynəlxalq yükdaşımaları, ikincisi isə Azərbaycanın yerli və beynəlxalq yükdaşımalarını həyata keçirməkdədir. Şirkətləri beynəlxalq yük daşımaları ilə məşğul idi. İngiltərədən Çexiyaya, Çexiyadan İtaliyaya, Azərbaycana və digər ölkələrə yüklər daşınıb. İyunun 30-da R.Qafarovu görüşə çağırıblar. Görüşə çağırılanda telefon söhbətinin şahidi olan həyat yoldaşı hər hansı bir qeyri-adilik hiss etməyib. R.Qafarov görüşə gedəndən az sonra onu Praqa şəhəri, Argentinskaya küçəsində öz maşınında cansız vəziyyətdə aşkarlayıblar. Məhkəmə tibb ekspertləri onun bədənində 5 bıçaq xəsarətinin izini aşkarlayıb. Hazırda istintaq bu məsələni araşdırır ki, ona həmin xəsarətləri maşında yanında əyləşən şəxs yetirib, yoxsa hadisə maşından kənarda olub. İlkin qənaətlərə görə, hadisə maşından kənarda baş verib.

R.Qafarovun 40 yaşı vardı. İşə Azərbaycanın prokurorluq orqanlarında başlamışdı. R.Qafarov Çexiyada və Azərbaycanda öz sahəsində kifayət qədər tanınmış biznesmen olub. O, hazırda fəaliyyətini dayandırmış Azərbaycan Beynəlxalq Universitetinin məzunudur, bundan əvvəl “Panalpina” beynəlxalq loqistika şirkətinin regional nümayəndəliyində işləyib. Sonuncu vəzifəsi “TERN Transport & Trading CZ” şirkətinin baş direktoru vəzifəsi idi. Çexiyanın şirkətlər reyestrində yer alan məlumata görə, bu şirkətin səhmdarları Rəşad Qafarov və Dilara Qafarovadır. “TERN Transport & Trading” şirkətinin saytında göstərilənlərə əsasən bu şirkət 2008-ci ildə yaradılıb, hava, dəniz, dəmiryolları və avtomobil daşımaları ilə loqistik xidmətlərin tam kompleksini təklif edir. Şirkətin ilkin yükdaşıma marşrutu Azərbaycandan olsa da, o, tezliklə fəaliyyətini genişləndirib, Çexiya, Böyük Britaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Türkiyədə filiallar şəbəkələri, anbarlar yaradıb. Şirkət hazırda Avropanın avtomobil nəqliyyatı ilə yükdaşımalar sahəsində liderlərindən biridir. Saytda göstərilir ki, şirkət dünyanın istənilən bir nöqtəsindən istənilən başqa nöqtəsinə yükləri çatdırmağa hazırdır. Yükdaşımalardan əlavə, şirkət yüklərin qısa və uzunmüddətli saxlanılmasını, yüklərin idarə edilməsini, gömrük xidmətlərini, sığorta və digər məsələləri də həll edir.

R.Qafarovun qətli ilə bağlı ölkəmizin Çexiyadakı səfirliyi ilə əlaqə saxladıq. Səfirliyin əməkdaşı Sənan Fərəcov deyib ki, sorğumuzu cavablandırmaq üçün Çexiya hüquq-mühafizə orqanlarından istintaqın gedişatı ilə maraqlanıb.

“Çexiya hüquq-mühafizə orqanları tərəfindən səfirliyimizə heç bir rəsmi məlumat daxil olmayıb. Hələ ki istintaq davam edir. Biz də istintaqın nəticəsini gözləyirik. Səfirlik mütəmadi olaraq bu məsələ ilə maraqlanır, hələ istintaq davam edir. Əlimizə bir məlumat çatsa, ictimaiyyətə çatdıracağıq”, - deyə səfirlik əməkdaşı bildirib.

❑ E.MƏMMƏDƏLİYEV


Faiq Seyidov

# Varlıların cinayətləri gizlədilir - Faiq Seyidovun oğlunun yeni istintaqı olacaqmı?

## DİN-in mətbuat xidməti: “Hazırda iş üzrə istintaq gedir…”

**General, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini Novruzəli Orucovun oğlu Rüstəm Orucovun həbsi ölkə ictimaiyyətindən gizlədilən bir sıra cinayətləri üzə çıxarıb.**

Məlum olub ki, generalın oğlu Rüstəm Orucov “Xaliq Faiqoğlu” MMC-nin faktiki sahibi Faiq Seyidovun nəzarətində olan marşrut xətlərindən birində sürücü olan Sənan Səmədovu vurub xəstəxanalıq edəndən əvvəl də avtomobillə ölümlə nəticələnən qəza törədib. Həmin qəzadan sonra təhsil aldığı Polis Akademiyasının 3-cü kursundan qovulub, 2 il həbsdə olub və şərti cəza üzərində saxlanılmaqla azad olunub. R.Orucovun avtobus sürücüsü ilə höcətləşməsi və onu döyməsi özünün keçmişdə törətdiyi hadisə ilə bərabər “Xaliq Faiqoğlu” MMC-nin faktiki sahibi Faiq Seyidovun oğlu Xaliq Seyidovun da ölümlə nəticələnən avtoqəza törətdiyini üzə çıxarıb. X.Seyidov 2015-ci ildə sərəncamında olan Az 10 LU 090 dövlət nömrə nişanlı “Mercedes GL” markalı avtomobili ilə Binəqədi rayonu ərazisində yol-nəqliyyat hadisəsi törədib. O, avtomobilini yüksək sürətlə idarə etdiyindən qarşısına çıxan piyadanı vurub. Piyada isə aldığı ağır xəsarətlərdən hadisə yerindəcə keçinib. İş adamının oğlunun bahalı maşınla vurduğu şəxs Müdafiə Nazirliyinin polkovnik-leytenant rütbəli zabiti Eldar Məmmədov olub. Həmin vaxt bu hadisəni ictimaiyyətdən gizlədiblər. Elə bu faktın gizlədilməsi iş adamının oğlunu məsuliyyətdən kənar da saxlanılmasını, həbs edilməməsini təmin edib. Məlumdur ki, prezident İlham Əliyev bahalı maşınlarla avtoşluq edən, ictimaiyyətə saymazyana münasibət göstərənlərə qarşı mövqeyi sərtdir. Prezident dəfələrlə məmurlara xəbərdarlıq edərək onları övladlarını düzgün tərbiyə etməyə çağırıb. Prezident hətta bəzi məmurlara məhz övladlarının xoşagəlməz hərəkətlərinə görə sərt xəbərdarlıq da edib. Ölkə başçısı vəzifəli şəxslərdən cəmiyyətdə özlərini apara bilməyən övladları barədə ölçü götürməyi tələb edib.

**“Kim onlara bu statusu verib cəmiyyətdə? Bir də bilsəm ki, kiminsə ailə üzvü haradasa xuliqanlıq eləyir, nadanlıq eləyir, özünü apara bilmir, o adam həbs ediləcək, atası işdən qovulacaq”, - deyə dövlət başçısı vurğulayıb.**

F.Seyidov məmur olmasa da, böyük maliyyə imkanlarına sahib iş adamıdır. Onun oğlunun istintaqdan kənar saxlanılması, baş zabit E.Məmmədovun ölümü ilə nəticələnən yol qəzasının “cinayət tərkibi olmadığından” xitam olunması suallar yaradıb. Xitam qərarının verilməsinin əsasları bu gün də geniş ictimaiyyətdən gizlədilir.

Məsələ ilə bağlı Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsi ilə əlaqə saxladıq. Şöbədən bildirdilər ki, X.Seyidovun törətdiyi ölümlə nəticələnən qəzadan dolayı başlanan cinayət işinin hansı səbəbdən xitam olunduğu haqda məlumat vermək səlahiyyətləri yoxdur. DİN-in mətbuat xidmətindən isə sorğumuza cavab veriləcəyini qeyd etdilər.

Yada salaq ki, general Novruzəli Orucovun oğlu Rüstəm Orucov da vaxtilə ölümlə nəticələnən avtoqəza törədib. F.Seyidovun oğlu Xaliq Seyidovun eyni tərkibli əməlini cinayət kimi qiymətləndirməyən istintaqçılar Rüstəm Orucovun əməlində cinayət tərkibi tapıblar, onu həbs edib məhkəmə qarşısında dayanmasını təmin ediblər. Niyə belə olub? Ortada ölümlə nəticələnən 2 avtoqəza var - qəzaların nəticəsi də eynidir. Bəs niyə generalın oğlunu tutub, iş adamının oğlunu sərbəst buraxıblar? Səbəb nə olub? Suallar açıqdır.

Bundan başqa, Faiq Seyidovla sahibkar Azadxan Xanməmmədovun arasında yaranan mülki mübahisəyə görə sonuncu həbs olunub. A.Xanməmmədovun yaxınları bildiriblər ki, həbsindən əvvəl barəsində mətbuatda düzgün olmayan, həqiqəti əks etdirməyən məlumatlar yayılıb. Ona görə də dövlət orqanlarında, media qurumlarında bu məsələ ilə əlaqədar səhv təsəvvür yaranıb.

Yaxınları iddia edirlər ki, A.Xanməmmədov “Xaliq Faiqoğlu” MMC-nin rəhbəri F.Seyidov tərəfindən şərlənərək əsassız yerə həbs edilib. Hazırda A.Xanməmmədovun xüsusi mülkiyyətində olan 2100 kvadrat metr sahə Faiq Seyidovun sərəncamında qalıb. Belə ki, A.Xanməmmədovun mülkiyyətində olan əmlakdan F.Seyidov 5 ildən çoxdur ki, qanunsuz olaraq istifadə edir və bunun müqabilində icarə haqqının ödənilməsindən belə boyun qaçırır. Ondan şikayət edən A.Xanməmmədovun ailəsini hədələyir, müxtəlif yollarla təzyiq göstərir. A.Xanməmmədov F.Seyidov tərəfindən zəbt edilmiş əmlakının boşaldılması barədə məhkəməyə və özünə müraciət edib. Bundan sonra isə şərlənərək həbs olunub.

DİN-in mətbuat xidmətindən “Yeni Müsavat”ın əməkdaşının sorğusuna cavab olaraq bildiriblər ki, hazırda iş üzrə istintaq gedir.

Qeyd edək ki, Azad Xanməmmədov 2 min kvadrat metr sahəsi olan obyektləri “Safa Holdinq”in sahibi, Bakıda çoxsaylı marşrutları, obyektləri olan Faiq Seyidova icarəyə verib. Amma icarə haqqını ala bilməyib. Buna görə də Azad Xanməmmədov məhkəməyə üz tutub. Faiq Seyidov Azad Xanməmmədovun məhkəməyə müraciətindən xəbər tutduqdan sonra həmin əmlakın yerləşdiyi binada təxribat törədəcəyini və Xanməmmədovun ailəsini hədələyərək hamısını zindanlarda çürüdəcəyini bildirib. A.Xanməmmədov isə əmlakın onun adına olmasından, həmin əmlakın yararsız hala salınacağından, binada təxribat törədiləcəyindən və nəticədə sadə insanların zərər çəkə biləcəyindən ehtiyat edərək obyektləri qorumaq məqsədilə qanunauyğun şəkildə “Riyad” Mühafizə Xidməti ilə müqavilə bağlayıb. Mühafizə xidməti ərazinin mühafizəsini həyata keçirməyə başlayan zaman Faiq Seyidov və onun tərəfdarları tərəfindən əvvəlcədən planlaşdırılmış təxribat xarakterli hərəkətlərə yol verilərək məqsədli şəkildə münaqişə yaradılıb və nəticədə onlar hadisədə heç bir iştirakı olmayan Azad Xanməmmədovun həbsinə nail olublar.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

## Qərb qonşumuz üzərindən Azərbaycana şimal təhlükəsi

**Azərbaycanın da daxil olduğu Güney Qafqaz ətrafında situasiya gərginləşməyə üz tutub. Sözsüz ki, bunun da qayəsində bölgənin həll olunmamış üç konflikti durur - Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya. Ələlxüsus da Qarabağ ixtilafı bölgəni böyük inkişafdan və inteqrasiya proseslərindən saxlayan əsas əngəl olaraq qalır.**




# Kremlin qorxulu "üçüncü Qarabağ" ssenarisi

## Moskva NATO-ya can atan Gürcüstanı ram eləmək üçün Cavaxetiya ermənilərini ayağa qaldıra bilər; son bir ildə əlaqələri xeyli istiləşən Türkiyə Rusiyadan əsən "soyuq küləyi" önləyə biləcəkmi? Ekspertlər deyir ki...

Moskva hələ ki Dağlıq Qarabağ məsələsinə müstəqilliyini birtərəfli qaydada tanıdığı Abxaziya və Cənubi Osetiyadan bir qədər fərqli yanaşır. Hərgah, mahiyyət ciddi şəkildə fərqlənmir. Kreml Qarabağ məsələsi ilə də Ermənistanın vasitəsi ilə eyni dərəcədə manipulyasiya edir, onun həllinə və region ölkələrinin bir-biri ilə dolğun əlaqələr qurmasına əngəl yarada bilir. Görəsən, nə vaxtadək? Gürcüstanın Qərbə, NATO-ya istiqamətli addımlarının intensivləşməsi Rusiyanı hansı məkrli ssenarilərə sövq edə bilər?

***

**"Rusiya istəmədiyi müddət ərzində Cənubi Qafqazda konfliktlər bitməyəcək". Bu sözləri axar.az-a Rusiyanın MDB ölkələrinə, o sırada Güney Qafqaz ölkələrinə təsirini yenidən gücləndirməyə çalışmasını şərh edən politoloq İlqar Vəlizadə deyib. Onun fikrincə, Moskva müxtəlif vasitələrlə Qafqaz dövlətlərini öz təsir dairəsindən kənara buraxmamağa çalışır.**

"Cənubi Qafqazda 3 regional konflikt ocağı var. Praktika göstərir ki, xarici müdaxilələr hər zaman münaqişələrin gərginləşməsinə gətirib çıxarır. Rusiya bu konfliktlərə maraq göstərdiyi müddətdə münaqişə ocaqları həll olunmamış qalacaq", - deyə o qeyd edib. Politoloqun sözlərinə görə, Kreml Qarabağdan fərqli olaraq, Abxaziya və Cənubi Osetiya konfliktində birbaşa iştirak edir.

"Rusiyanın rəsmi dövlət kimi Abxaziya və Cənubi Osetiyanı tanıması buna misaldır. Gürcüstanın bu regionları yenidən özünə inteqrasiya etdirməklə bağlı hər hansı bir ciddi addımı Rusiyanın müqaviməti ilə qarşılaşacaq. Moskvanın Tiflisə təzyiq üçün alternativ konflikt ocaqları yaratmaq ehtimalı da var. Bunlar sırasında daha təhlükəli vəziyyət erməni icmasının yaşadığı Cavaxetiya bölgəsi ilə bağlıdır. Moskva burada erməni diasporundan da istifadə edə bilər. Çünki buradakı erməni diasporu Rusiyada fəaliyyət göstərən erməni diasporu ilə sıx bağlıdır. Bu bağlılığa görə Rusiya istədiyi vaxt Cavaxetiya bölgəsində erməniləri bir təzyiq aləti kimi Tiflisə qarşı istifadə edə bilər" - politoloq vurğulayıb.

***

**Öz növbəsində keçmiş dövlət müşaviri Qabil Hüseynli Rusiyanın nə Cənubi Qafqazı, nə də Ukraynanı əlindən buraxmaq fikrində olmadığını deyir. O, Rusiyanın Cənubi Qafqazda olan 3 regional konflikt ocağını, o cümlədən Ukraynadakı konflikt ocaqlarını istədiyi zaman aktivləşdirə biləcəyi qənaətindədir:** "Rusiya bu proseslərdə tənzimləyici rol oynayaraq, istədiyi vaxt Azərbaycan-Ermənistan sərhədində vəziyyəti gərginləşdirə bilər. Aprel əməliyyatları elə bunun nəticəsi idi. Ermənistan bir qaydaolaraq, Rusiyanın təlimatı ilə hər an hərəkətə keçə bilər".

**Politoloq əmindir ki, Rusiya postsovet məkanına təsirini gücləndirmək istəyir:** "Moskva Ukraynanın daxilində daha təhlükəli konfliktin bünövrəsini qoyub. Söhbət qondarma Malorusiya dövlətinin yaradılması və daha sonra Rusiyaya birləşdirilməsi planından gedir. İndi görünür ki, Rusiya SSRİ-nin keçmiş ərazilərində qurulmuş respublikaların ərazilərini zəbt etmək üçün ciddi proseslərə hazırlaşır. Rusiya öz məqsədini mərhələli şəkildə həyata keçirir".

**Q.Hüseynli Moskvanın daha ağır zərbəni Gürcüstan üçün hazırladığını bildirib:** "Rusiya Gürcüstana təsir göstərmək üçün Cavaxetiya bölgəsindəki erməniləri də ayağa qaldıra bilər. Cavaxetiya bölgəsində olan ermənilərin muxtariyyət tələb etmək istəyi tək İrəvandan deyil, həm də Rusiyadan gələn siqnallar əsasında həyata keçirilir. Gürcüstanın ağır günlərində Cavaxetiya erməniləri də ayağa qalxıb muxtariyyət tələb etməklə Tiflisin vəziyyətini daha da ağırlaşdırırdılar. Daha sonra Bakı-Tiflis-Ceyhan neft kəməri çəkiləndə də guya ekoloji maraqları nəzərdə tutaraq, bunun əleyhinə çıxırdılar. Bakı-Tiflis-Qars dəmir yolu tikilərkən də onlar fəal surətdə bunun əleyhinə kampaniya başlatdılar. Bu gün də Cavaxetiya erməniləri Gürcüstanda müəyyən üstünlüklərə malikdirlər. Onların sayı Gürcüstanda 150 minə çatmır, amma maraqlı məqam odur ki, orada olan 600 min azərbaycanlının parlamentdə cəmi 3, ermənilərin isə 6 nümayəndəsi var. Göründüyü kimi, Cavaxetiya erməniləri kifayət qədər fəaldırlar. Ermənilər həmişə Cavaxetiya ermənilərini Gürcüstandan ayıraraq, Qara dənizə çıxış uğrunda mübarizə aparıblar".

***

Qeyd edək ki, Rusiya son zamanlar Gürcüstanda prezident seçkiləri ərəfəsi rusiyayönlü siyasətçilərin maliyyələşdirilməsini artırıb. Moskva həmçinin Abxaziya və Cənubi Osetiyada aktivləşməkdədir. Gürcü ekspertlərin fikrincə, Kreml bununla Tiflisin Qərbə, NATO-ya inteqrasiyasının qarşısını almağa çalışır.

Bundan başqa, Moskva Gürcüstanla bərabər Malorusiya adlı qondarma dövlət yaratmaqla Ukraynaya təzyiqlərini gücləndirib. Ukraynanı daim öz ərazisi hesab edən Kreml bu dövlət uğrunda savaşını gücləndirməklə SSRİ-dən sonra Qərblə arasında mövcud olan bufer zonasının yoxa çıxmamasına çalışır...

***

Bu arada İstanbuldakı Tədqiqatlar Mərkəzi bir ictimai sorğunun nəticələrini açıqlayıb. Musavat.com-un verdiyi məlumata görə, məlum olub ki, hazırda qardaş ölkədə Rusiyanı yox, ABŞ-ı ən qeyri-dost dövlət hesab edirlər (müvafiq surətdə 18 və 37% ). Avropa Birliyi ölkələrinin adları da qeyri-dost dövlətlər sırasında çəkilib (24%). Respondentlərin 71%-i isə Azərbaycanı Türkiyənin ən sadiq dostu hesab etdiyini deyib. Bu, ötən illə müqayisədə 12% çoxdur. Rusiyanı qatı düşmən ölkə sayanlar isə ötən illə müqayisədə (34%) azalaraq, 18%-ə düşüb.

Sorğudan göründüyü kimi, Ankara-Moskva münasibətləri keçən bir ildə xeyli istiləşib. Deməli, məntiqlə Türkiyənin Rusiyaya təsir imkanları da artıb. Bəs imkanlar Dağlıq Qarabağ məsələsində özünü müsbət planda göstərə bilərmi?

Qeyd edək ki, prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Türkiyənin yüksək çinli rəsmiləri dəfələrlə, həm də Rusiyaya səfərlər çərçivəsində bəyan ediblər ki, Dağlıq Qarabağ konfliktinin həlli üçün ilk növbədə Azərbaycanın işğal altındakı rayonlarından heç olmasa, bir neçəsinin azad edilməsi qaçılmazdır və bundan sonra bölgədə böyük iqtisadi sıçrayış başlaya bilər. Rayonların azad edilməsi isə bilavasitə Rusiyadan və onun iradəsindən, daha doğrusu, Kremlin öz vassalı Ermənistana təsirindən asılıdır.

Əgər Moskva bunun əvəzində, üstəlik, Gürcüstanda - Türkiyə və Azərbaycanın mühüm strateji tərəfdaşı olan ölkədə "üçüncü Qarabağ"ı yaradacaqsa, o zaman dolayısıyla, Türkiyə və Azərbaycanın maraqlarına da ziyan vurmuş olacaq. Deməli, enində-sonunda öz maraqları da ziyan görəcək. Çünki Gürcüstan bölgədə tək deyil.

❑ **Analitik xidmət**

## Jurnalistin şad gününü özünə dərd edənlər



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycan jurnalistikası Azərbaycanın özü kimi ziddiyyətli bir dönəmdən keçir. Bu dönəmdə media üçün bizcə, ən önəmlisi odur ki, jurnalist adına iddia edən hər kəs ilk növbədə Azərbaycan adına bacardığını eləsin.**

Mövcud şərtlər altında "Yeni Müsavat" olaraq, biz məhz bunu edirik - mümkün olanı. Hətta olmayanı da etməyə çalışırıq. Sağa-sola baxmadan, sağdan soldan üstümüzə yönəlmiş qərəzli baxışlara etina etmədən işimizdəyik. Ancaq "boyumuzdan yuxarı tullanmaq" barədə də düşünmürük. Sadəcə, vəzifəmizi yerinə yetiririk. İş olan yerdə isə qüsur həmişə var. Yalnız ölülər səhv eləməz.

Fəqət, qərəzli şəkildə müsbət işlərimizi görməzlikdən gəlib, xırda-para yanlışları böyük günah, az qala bəşəri cinayət kimi gözümüzə soxanları, bizə dil uzadanları da ədalətli saya bilmərik.

Ölkədəki vəziyyətə, mətbuatın durumuna təbii ki, hərə öz səviyyəsinə, dünya görüşünə, hətta mədəniyyətinə uyğun qiymət verir. Baş verənləri köhnə arşınla ölçənlər də az deyil. Hər kəs özü bilər, Allahı bilər. Lakin gerçək belədir ki, Azərbaycanda tənqidi jurnalistikanın adası qalır və "Yeni Müsavat" da o adanın hüdudlarında mövcuddur.

Bəziləri hələ də bizi yanlış olaraq, siyasi kəsimin tərkib hissəsi kimi qəbul edir. Bundan çıxış edərək də bizə - mediaya qarşı hələ də siyasi tələblər, hətta şərtlər irəli sürür. Beləcə, mətbuatla bağlı əsassız siyasi gözləntilər içində əzab çəkir, çabalayır. Ancaq media hakimiyyət uğrunda, hakimiyyəti dəyişmək uğrunda mübarizə aparmır. Bu, onun missiyası deyil. Normal dövlətdə mətbuatın missiyası bu ola bilməz. Normal ölkələrdə media hakimiyyətdən də, müxalifətdən də bərabər məsafədə dayanan bir ictimai təsisatdır, "4-cü hakimiyyətdir".

Bu "üçbucaq" çərçivəsində bacardığımız budur. Kimsə bu işi daha yaxşı görə bilirsə, buyursun, keçsin önə. Biz də baxıb görək, o, yolu necə gedəcək, yarı-yolda "motoru" tökməyəcək ki? Qərəz, məsləhətimiz budur ki, biriləri naşükürlük eləməsin, minnət də qoymasınlar bizə.

Təbii, hamıdan obyektivlik gözləməyə dəyməz. Hərənin öz mizan-tərəzisi var. Amma və lakin bu məmləkətdə hər kəs əgər götürdüyü statusa uyğun şəkildə boyun borcu olan missiyasını yerinə yetirsəydi, ölkənin nə dərd olardı ki.

Bişəkk, Azərbaycan reallığı, Azərbaycan özəllikləri də var. Heç kim Aydan gəlməyib. Ancaq əgər bir siyasi qüvvə, siyasətçi, fərd mətbuatı özünə dost, digəri düşmənə çevirirsə, bunun səbəbini elə o siyasətçi və ya siyasi qüvvədə, fərddə axtarmaq daha doğru olmazmı?

Bu, medianın problemi deyil axı. Reallıqları görməzlikdən gəlib ölkənin bütün tanınmış yazarları və imzalarına qarşı cəbhə açmaq, onları haqq-nahaq incitmək siyasətçiyə və ya siyasi partiyaya, şəxsə başucalığı və nüfuz gətirə bilməz. Bu aksiomdur. Hazırda ABŞ-da prezident Donald Tramp-media qarşıdurmasında da bunu parlaq şəkildə görmək olar.

Nə isə. Bir görün, artıq kimlərə, hansı isimlərə qarşı vuruşursuz və bu davanın sonunda sizə uğur vəd olunurmu? İqtidarlar dəyişəcək, mətbuat dəyişməyəcək. Mətbuatla dost olmaq isə mətbuatın, bizim problemimiz deyil. Əminik, Zərdabi sağ olsaydı, eyni sözü deyərdi.

Yəqin bəzi ağzı göyçəklər, jurnalistin şad gününü özünə dərd edənlər yenə başlayacaqlar ki, bunların deməyə hələ sözü də var. Bəli, sözümüz var, həmişə də olacaq! Çünki jurnalistik. Biz öz yolumuza davam edirik. Hər şeyə dəqiq qiyməti isə əlahəzrət zaman, tarix verəcək. Heç kim də darıxmasın, qabağa qaçıb nostradamusluq eləməsin, əxlaq polisi roluna iddiaçı olmasın. Ələlxüsus o kəslər ki, əxlaqı qüsurludur.

Doğru, jurnalist müstəqilliyini qorumaq üçün bahalı hədiyyə götürməməlidir. Ancaq bu hədiyyəni əgər ehtiyac içində olan jurnalistə həmin jurnalistin yolunda can qoyduğu, həyatını riskə atdığı dövləti verirsə, onda necə? Ərazi bütövlüyümüz uğrunda şəhid olan əsgərin ailəsi və yaxud qaçqın-köçkün dövlətin verdiyi evdən imtinamı etməlidir? Yoxsa olmaya, müxalifət hakimiyyətə gələcəyi təqdirdə jurnalistlərin, qaçqın-köçkünlərin, şəhid ailələrinin evlərini qanunsuz elan edib milliləşdirməyi düşünür?..

***

Jurnalist də ön cəbhədə olan və həyatını riskə qoyub Vətənin keşiyində duran əsgərdir. Sadəcə, əlində avtomat yox, qələmdir. Odur ki məsləhətdir körpülərin hamısını yandırmayasız. Yenə bizə ehtiyacınız ola bilər...

Bayramınız mübarək! Vətənin keşiyində duran, səngərdə olan jurnalistləri deyirik.

**Biz yazmağa davam edəcəyik. Necə ki, prezident İlham Əliyev mətbuat işçiləri qarşısında nədən yazmalı olduğumuzu bir daha bizə xatırlatdı. Mənzil alanlar jurnalistlər haqqında az qala keçmiş zamanda danışmağa cəhd edənlər bir azca düşünsəydilər kaş.**

Elşad PAŞASOY
epashasoy@yahoo.com



# Prezident "yazın" dedi, "yazmayın" yox

Təsəvvür edin, bu dövlətin başçısı "jurnalistlər bəlkə özləri də bilmədən mənim köməkçilərimdir" deyir. Bu, mətbuata böyük etimad, ona verilən önəmdir! Bu dövlət indiyədək üst-üstə 410 mənzili jurnalistlərə ona görə hədiyyə etməyib ki, "daha qələm-kağızınızı yığışdırın, bilgisayarı qapadın, yazmayın". Əksinə, yazmağı stimullaşdırdı.

Mənzil arzusunda olan dostlar, əmin olun, bundan sonra kimlər peşəkarcasına, qərəzsiz, obyektiv, təhqirdən uzaq, vətənpərvərlik ruhunda yazmaqda davam edəcəksə, hətta məmur özbaşınalığı, ölkədəki problemlər haqda məlumatları tirajlayacaqsa, onlar da mükafatlandırılacaq. Özü də siyasi baxışlarına fərq qoyulmadan.

**Prezidentin dediklərinə diqqət edin:** "Bu binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrı-seçkiliyə yol verilmədi. Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar". Bu, birlik modelidir, kin-küdurətə son qoyulmasına çağırışdır, "hamımızın bir Vətəni var, bütün gücümüzü, qüvvəmizi onun naminə sərf etməliyik, bir-birimizlə mübarizədə tükətməməliyik" mesajıdır.

Açılış günündə prezident İlham Əliyevə "Yeni Müsavat" ailəsi, qəzetimizin rəhbərliyi və şəxsən öz adımdan təşəkkür etmək fürsətim oldu, çox səmimi qarşıladı, xeyir-duasını əsirgəmədi, uğurlar arzuladı, "Rauf müəllimə salam deyin" söylədi. Mətbuata bundan gözəl münasibət ola bilərmi? Bir nümunədir, prezident tənqidçi medianın baş redaktoruna salam yollayır. Bu, ümumilikdə mətbuata səmimi münasibətin nümunəsidir.

Bu mesajlara, bu münasibətə dəyər vermək, təqdir etmək, bunlar da olmasa, heç olmasa susmaq əvəzinə, biriləri "ay aman, İlham Əliyev "Yeni Müsavat"çılara ev verdi" deyə, haray çəkirlər. O, bu addımı ilə hər bir azərbaycanlının prezidenti olacağı barədə vədinə sadiqliyini nümayiş etdirdi. Amma biriləri siyasətdə uğur qazana bilməmələrinin səbəblərini, deyəsən, mətbuatda xidmətləri olan şəxslərin dövlətdən mənzil hədiyyə almasında axtarırlar, əbəs yerə.

Biz illərdir ki, nəinki ölkə daxilində müxalifətdə olanlara normal münasibətin olması zərurətindən, onların təltiflənməsindən bəhs edən o qədər yazılar yazmışıq ki. Buna görə bizə bir təşəkkürü çox görənlər indi prezidentin bizə mənzil hədiyyə etməsinə görə sarsıntı keçirirlər. Jurnalist həbs olunur, etiraz edirlər. Jurnalistə mənzil bağışlanır, yenə etiraz. Yaxşı, siz nə istəyirsiniz?! Bəlkə mətbuatın reklam bazarına xüsusi töhfəniz var, mətbuata dəstək layihələriniz var? Sizdən təbrik gözləyirdik, çox gördünüz...Amma inanın, prezident İlham Əliyev bir gün sizi mükafatlandırsa, bizim münasibətimiz fərqli olacaq...

Əslində prezidentin çıxışı mətbuatın qarşısında bir "Yol xəritəsi"dir, ölkədəki neqativlərə qarşı daha fəal olmaq çağırışıdır. Bizim üzərimizə düşən yeganə iş yazmaqdır. Həm də tənqidçi medianın hədəfinə tuş gələ biləcək məmurlara da mesajını vermiş oldu. "Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz" - dedi ölkə başçısı.

Daha nə deməlidir? Dövlət başçısı "yazın" deyirsə, bundan sonra onun iradəsinə qarşı kimsə çıxa bilməz təbii ki. Nöqsanları ört-basdır etmək yalnız inkişafı əngəlləməkdir, prezidentin siyasətinin məğzi də budur.

Mətbuat nümayəndələrinin halal haqqı olan mənzil dartışmasını aparmaqdansa, dövlət başçısının mesajlarına diqqət edin. Ölkədə yeni bir dönəmin anonsu verilib. "Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır"; "Ölkə iqtisadi cəhətdən zəngin ola bilər, təbii resurslarla zəngin ola bilər, amma əgər cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər"; "Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq". Siz belə cəmiyyət arzulamırsınızmı?

Biriləri də mənzil sahibi olan həmkarlarımızı qınayır ki, siz niyə buna görə təşəkkür edirsiniz? Mətbuatda illərdir külüng çalan insanlara ildə bir dəfə telefon təbrikini belə çox görənlər doğrudanmı başa düşmür ki, söhbət dövlətin EV hədiyyəsindən gedir? Özü də təmənnasız hədiyyə! Təsəvvür edin, sənə zəng edib deyirlər ki, buyurun, tədbirə gəlin, sizə mənzil hədiyyə olunacaq. Bunun qarşılığında nəhəng bir işin meman olanlara təşəkkür etmək qəbahətdirmi?

İndiyə qədər bu dövlətin rəhbərliyi hansısa jurnalistə "sənə ev vermişəm, niyə filan cür yazırsan" deyibmi? Deməyibsə, lütfən, bu cür gözəl təşəbbüsə, savab addıma kölgə salmağa çalışmayın! Bineyi-qədimdən bu məmləkətə ev tikənə "yorulmayasan", ev alana "mübarəkdir" deyiblər. Xoş söz demirsinizsə, öz işinizdir. Barı, susun...

---

**Qüds mövzusu son olaraq iki mühüm hadisə ilə yenidən gündəmdədir. Birinci hadisə Qüdsdə baş verən gərginlikdir. İyulun 14-də Qüdsdə baş verən qarşıdurma nəticəsində 2 İsrail polisi və 3 fələstinli öldürülüb, 3 israilli isə yaralanıb. Bundan sonra İsrail təhlükəsizlik qüvvələri "Məscid əl-Əqsa"nı bağlayıb və son 50 ildə ilk dəfə Cümə namazı qılınmayıb.**

Kənan RÖVŞƏNOĞLU



# Yaxın Şərq "dalanı"

## Qüds probleminin dünəni, bu günü və gələcəyi

Bu hadisə dünyada ciddi reaksiya doğurub, hətta Türkiyə prezidenti israilli həmkarına zəng edərək məscidin qapadılmasına etiraz edib, müqəddəs məkana həssaslıq göstərilməsinə çağırıb. Fələstin prezidenti Mahmud Abbas xarici səfərini yarımçıq qoyaraq Ramallaha qayıdıb, bir sıra ölkələrdə aksiyalar başlayıb.

İkinci hadisə isə iyulun 20-də Bakıda keçirilən Qüds konfransı idi. Əslində bu iki hadisə arasında birbaşa bağlılıq yoxdur. Azərbaycan XİN, BMT və İslam Əməkdaşlıq Təşkilatı aylar öncədən planlaşdırılmış Qüds konfransı keçirərək beynəlxalq ictimaiyyətin diqqətini bu probleme yönəltməyə çalışır. Sayca 4-cüsü keçirilən Qüds konfransı Azərbaycanın Yaxın Şərqdə aktiv diplomatiyası olan ölkələrdən birinə çevrilmək yolunda mühüm addımdır.

Ancaq iki hadisəni birləşdirən məqam Qüdsə münasibət idi. Bizim diqqətimizi Bakıdakı Qüds konfransı ilə bağlı bir şəkil çəkdi. Zalda iştirakçılar üçün ayrılmış masaların 80 faizi boş idi. Müsəlman aləminin hər nə qədər ən ciddi problem olaraq təqdim etsə də, ilk gündən Qüds məsələsinə məsuliyyətli yanaşmayıb. Bunu Qüdsün hüznlü tarixi də təsdiqləyir. Fələstin və Qüds şəhərinin bu gün düşdüyü vəziyyətin əsası qoyularkən bugünkü vəziyyət olub.

Məlum olduğu kimi, Qüds şəhəri 3 səmavi dinin - İslam, Xristianlıq və Musaviliyin müqəddəs şəhəridir. Eramızdan əvvəl 3-cü minillikdə əsası qoyulmuş bu şəhərdə yəhudiliyin əsas müqəddəs məbədi "Süleyman Məbədi" (Beyt əl-Makdis) yerləşir. Bundan başqa, xristianlığın ilk illəri ilə bağlı yerlər, o cümlədən müsəlmanların ilk qibləsi də məhz Qüds şəhəri və orada yerləşən Beyt əl-Müqəddəs və ya Məscid əl-Əqsadır. Həm müsəlmanlar, həm yəhudilər, həm də xristianlar bu şəhərdə yaşayır, onu tarixi və dini bir mərkəz olaraq görür. Bu səbəbdən də İsrail dövlətinin yaradılması məsələsi gündəmə gələrkən həm yəhudilər, həm də fələstinlilər (müsəlmanlar) Qüds şəhərinə iddia etdilər. Qüdsün taleyi ötən əsrin əvvəlində yəhudilərin yenidən İsrail dövləti qurmaq iddiası ilə çıxış etdiyi zaman yenidən aktuallaşıb. Çünki daha əvvəl 400 illik Osmanlı İmperiyası zamanı Qüdsdə hər 3 dinin təmsilçiləri sülh və əmin-amanlıq içərisində yaşayıblar. Ancaq qədim yəhudi dini mənbələrinə istinad edən və qədim İsrail dövlətini yenidən bərpa etmək istəyən yəhudi millətçi qrupları Qüdsü Davud dönəmində olduğu kimi yeni İsrail dövlətinin paytaxtı kimi görürdülər.

1947-ci il noyabrın 29-da uzun müzakirələrdən sonra BMT-nin Fələstin üzrə xüsusi Komitəsi 181 saylı (II) bölünmə planı üzərində razılaşdı. SSRİ və ABŞ kimi ölkələrin də dəstəklədiyi bu plana əsasən 1948-ci il yanvarın 1-dək ərəb və yəhudi dövlətləri qurulacaq, Fələstin əraziləri 8 hissəyə bölünməsi, bunun 3 hissədə Fələstin (ərəb), 3 hissədə yəhudi (İsrail) dövləti qurulacaq, bir hissədə isə Yaffa şəhərində ərəb yaşayış məntəqəsinin qurulacaq, nəhayət, 8-ci bölgə isə Qüds şəhəri BMT-nin təyin etdiyi hamilik şurası tərəfindən idarə olunacaq və beynəlxalq idarəçiliyə tabe olacaq.

Ancaq ərəblər və müsəlmanlar bu plana etiraz etdilər. Anlaşma olmadığı üçün 1948-ci il mayın 15-də İsrail dövləti elan edildi, buna cavab olaraq Fələstin dövləti elan edilmədi, ancaq ərəblər İsrailə qarşı müharibəyə başladılar. 1948-ci ilin birinci Ərəb-İsrail müharibəsi nəticəsində Qüds şəhərinin qərb hissəsi İsrail tərəfindən, şərq hissəsi isə İordaniya tərəfindən ələ keçirildi. Bir il sonra isə İsrail Qüdsü paytaxt elan etdi. Ancaq dünya ölkələri bu qərarı tanımadılar və bu gün də xarici ölkə səfirlikləri hələ də Təl-Əvivdə yerləşir.

1967-ci ildə baş verən 6 günlük savaş zamanı İsrail ordusu Şərqi Qüdsü də işğal edərək, qədim şəhəri bütövlükdə nəzarət altına alır. Ancaq işğala baxmayaraq Qüdsdə müsəlmanlar yaşayır və Məscid əl-Əqsada ibadətlərini yerinə yetirirlər. Fələstin hökuməti hələ də Şərqi Qüdsü işğal ərazisi və Fələstin dövlətinin paytaxtı elan edib.

Son olaraq ABŞ prezidenti Donald Tramp İsrailə jest edərək prezident seçiləcəyi təqdirdə ABŞ səfirliyinin Qüdsə köçürüləcəyini bəyan etsə də, seçildikdən sonra bu vədini reallaşdıra bilmədi. Hələlik ABŞ qanunverici orqanı Trampın qeyri-standart, dünyada ciddi böhrana səbəb olacaq qərarının icrasını ləngidir. Qüds məsələsi və ümumiyyətlə, Yaxın Şərq böhranı *(bir qayda olaraq Ərəb-İsrail münaqişəsi belə adlanır - K.R.)* müsəlman aləminin və ərəb ölkələrinin ilk gündən qətiyyətli siyasi iradə ortaya qoymaması səbəbindən bugünkü vəziyyətə gəlib çatıb. Daha əvvəl iki dövlətli həll mexanizminin qəbul olunmaması və dalbadal uğursuz müharibələr münaqişəni daha da çıxmaza sürükləyib.

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

# Ermənistanda konsert verməyə hazırlaşan Ququşa sərt təpkilər gəldi

**Azərbaycan əsilli İran müğənnisi Ququşun Ermənistanda konsert verəcəyi ilə bağlı məlumat yayılıb. Sənətçinin öz İnstagram səhifəsində yaydığı məlumata görə, o, avqustun 31-də İrəvanda pərəstişkarlarının qarşısına çıxacaq. 2 sentyabr tarixində isə Tiflisdə konsert verəcək.**

Qeyd edək ki, Ququşun konsert turu siyahısında Azərbaycanın adı yoxdur. Onun bu davranışı ictimaiyyətdə böyük etirazla qarşılanıb. Hələ 2011-ci ildə sənəntçinin Bakıda konsert proqramı ilə çıxışı planlaşdırılsa da, son anda sənətçi Azərbaycana gəlməkdən imtina etmişdi. Bəzi iddialara görə, sənətçinin erməni sevgilisi onu bu səfərdən çəkindirib. Həmin ərəfədə ifaçının Azərbaycana qastrol səfərinin təşkilatçılığı ilə məşğul olan İran vətəndaşı, təbrizli Salman Pişnamaz bildirdi ki, Ququşla 2 ildir Bakıya gəlməsi ilə bağlı danışıqlar aparsa da, müğənni hər dəfə vaxtı uzadırmış: **"Bunun səbəbini sonradan bildim. Sən demə, Ququşun sevgilisi ermənidir. O, müğənnini özünün gedə bilmədiyi heç bir səfərə buraxmır. İfaçının sevgilisi Ququşu özü olmadan heç yerə buraxmayacağını bildirdi. Üstəlik, cütlük birlikdə Ermənistana səfər etməyə qərar verib".**

Digər iddialara görə, sənətçi əvvəlcədən Ermənistana səfər edəcəyini planlaşdırdığı üçün bu günə qədər ölkəmizə gəlməkdə tərəddüd edir. Onun ansamblında musiqiçilərin böyük əksəriyyətinin erməni olduğu da bildirilir. Ququşun erməni sevdalısı olması çoxdan məlumdur. Yaradıcılığa başlayan andan sənətçi erməni dilində çoxsaylı mahnılar oxuyub. Əslən azərbaycanlı olmasına baxmayaraq, Ququşun repertuarında Azərbaycan dilində mahnı çox azdır. Onların arasında Şəhriyarın sözlərinə Əli Səliminin yazdığı və ilk dəfə Rəşid Behbudovun oxuduğu "Ayrılıq" mahnısını qeyd etmək olar. Azərbaycan dilində çox az sayda mahnı oxusa da, əksinə, bir neçə il bundan əvvəl məşhur Azərbaycan mahnısı olan "Gedək üzü küləyə" mahnısını erməni dilində oxumuşdu. Daha sonra konserti zamanı azərbaycanlılarla bağlı lətifə danışması ölkəmizdə ciddi tənqidlərə, müzakirələrə yol açmışdı. Sosial şəbəkədə tənqid atəşinə tutulan müğənni ittihamlara "Mən özüm azəriyəm" deyə cavab vermişdi.

Bəs əslən azərbaycanlı olan Ququş kimdir?

Əsl adı Faiqə Atəşin olan Ququş 1950-ci ildə Tehranın Sarıçeşmə küçəsində, kasıb bir məhəllədə dünyaya gəlib. O, Seyid Cəfər Pişəvərinin yaratdığı Milli Ordunun polkovniki, əslən gəncəli olan Qulu Sübhinin nəvəsidir. Onun valideynləri əvvəlcə Gəncədən Bakıya, daha sonra isə Bakıdan İrana köçüb. Atası Sabir İranda canbaz və əyləndirici artist kimi çalışıb.

Qızı bir qədər böyüdükdən sonra onu da özü ilə birgə səhnəyə çıxardıb, mahnılar oxutdurub. Balaca qızcığazın səsi o qədər valehedici olub ki, sonralar o, şah sarayına və şahənə məclislərə dəvətlər alır, 7 yaşında artıq filmlərə çəkilməyə başlayır. Ququş ləqəbinə gəldikdə isə, əsl adı Faiqə Atəşin olan qızcığaz hələ kiçik yaşlarından o qədər gözəl olub ki, onu Qu quşuna bənzədiblər və o, Ququş kimi tanınmağa başlayıb. Şah sarayındakı çıxışları, şahın xanımı ilə yaxın münasibətdə olan Ququş getdikcə şöhrət qazanmağa başlayır. Beləliklə, Ququş tez bir zamanda İranın ən bahalı müğənni və aktrisası olur. Bütün İran ərazisində kinoteatrların bütün afişalarında daimi olaraq Ququşun çəkildiyi filmlər göstərilirdi. Hətta afişalarda onun çəkildiyi filmlərin adı deyil, sadəcə, "Ququş!" yazılırdı. Onun çəkildiyi filmlərdən "İsti hiss", "Bita", "Amerikalı Məməl", "Nazənin", "Həmsəfər", "Darıxma gecəsi", "Bal ayı", "Uzun gecə", "Bu gecə kimsə ağlayır" və sairi göstərmək olar. Onların arasında "Uzun gecə" filmi təkcə İranda deyil, dünyanın bir çox ölkələrində də şöhrət qazanır. Film sovet dövründə Azərbaycanda da nümayiş olunur.

1979-cu ildə İranda baş verən İslam İnqilabı digər sənətçilər kimi Ququşun da həyatını qaraldır. İran hakimiyyəti onun bütün fəaliyyətinə qadağa qoyur, ev dustağı edir, hətta çəkildiyi filmləri məhv edir. Bu səbəbdən də 2000-ci ildə Şimali Amerikaya mühacirətə gedir. Əslən azərbaycanlı olan Ququş ölkəmizdə də hədsiz dərəcədə sevilir.

Lakin "Mən özüm azəriyəm" deyən azərbaycanlı sənətçi bu və ya digər şəkildə Azərbaycana sevgisini nümayiş etdirməyib. Əksinə, erməni faşistləri tərəfindən qətlə yetirilən 2 yaşlı Zəhranı qəbul etməyərək İrəvanda konsert verməyə hazırlaşır. Halbuki Zəhranın qətlinə ermənilərin özlərindən də reaksiya verildi. Moskvada yaşayan erməni qadın Oksana Altunyan Bakıya gələrək Zəhranın və onun nənəsinin məzarını ziyarət etdi, ermənilərin mülki vətəndaşlara qarşı aqressiyasını pislədi.

Beləcə, azərbaycanlıların qətlinə susqunluq göstərən Azərbaycan əsilli müğənninin Ermənistana olacaq səfəri ictimaiyyətdə etirazlara səbəb olub.



**Flora Kərimova:**
"Bir də görəcəksiz ki, Ququş gəlib Azərbaycana, oturacaq başda..."



**Firuzə İbadova:**
"Əgər gedib düşmənlərimə konsert verirsə, deməli, bizə acıq verir"



**Nüşabə Ələsgərli:**
"Ququşun əri ermənidir"

**Azərbaycanın məşhur müğənnisi, xalq artisti Flora Kərimova bununla bağlı "Yeni Müsavat"a danışıb:**

"Sizcə, Soso Pavliaşviliyə etiraz edəndə səsimiz çatdı, saxlaya bildik?! Kim bizimlə hesablaşdı? Bir də görəcəksiz ki, Ququş gəlib Azərbaycana, oturacaq başda, hamı da onun haqqında təriflər deməyə, yazmağa ki, kökü azərbaycanlıdır. Ona deyil, bizlərə ayıb olacaq ki, o adam öz millətini danır, üzümüzə tüpürür, biz isə onun Azərbaycan kökənli olması ilə fəxr edəcəyik, öyünəcəyik. Guya Azərbaycan millətinin ondan başqa istedadı yoxdur. Xahiş edirəm ki, SSRİ xalq artisti Zeynəb Xanlarovadan bu haqda soruşsız. Onda əgər heç olmasa az da olsa milliyyətçi hissi varsa, sözünü desin".

Əməkdar artist Firuzə İbadova: "Bu məsələ birmənalı deyil, həm də siyasi xarakter daşıyır. Ququş dünyada çox məşhur bir ifaçıdır, öz ifaçısının şahzadəsidir. Bilirəm ki, onun kökü azərbaycanlıdır. Vaxtilə babaları Azərbaycandan köçüb İrana gediblər. Zamanında o, Bakıya konsert verməyə gəlməli idi. Hətta konsertdə mənim də iştirakım nəzərdə tutulmuşdu, yəni Ququşla birgə səhnədə ifa etməli idik. Onun sevgilisinin və ya ərinin hansı millətdən olduğu haqda məlumatsızam, lakin bilirəm ki, o, azərbaycanlıdırsa və 2 yaşlı Zəhranı qətlə yetirən faşistlərə konsert verəcəksə, mən bunun əleyhinəyəm. Bu cür müğənnilər heç Azərbaycana gəlməsin. Əgər gedib düşmənlərimə konsert verirsə, deməli, bizə acıq verir. Mən şəxsən bunu qəbul etmirəm, çünki azərbaycanlı qızıyam".

**Əməkdar artist Nüşabə Ələsgərova isə Ququşu azərbaycanlı hesab etmədiyini dedi:** "Mən konkret olaraq onu heç vaxt azərbaycanlı hesab etməmişəm. O, İranda böyüyüb, farsca mahnılar oxuyub. Bilirsiz ki, İranda yaşayan azərbaycanlılar arasında Ermənistana turist kimi səfər edənlər var. Onların yalnız adı azərbaycanlıdır. Əgər onların içərisində heç olmasa az da olsa Azərbaycan sevgisi olsaydı Ermənistana getməzdilər. Ququş da müğənnidir, ömür boyu İranda yaşayıb, sonra Amerikaya gedib, əri də ermənidir. Onun nəyini qınayaq axı, mən onu azərbaycanlı hesab etmirəm".

❑ Xalidə GƏRAY

## Lapşin Rusiyaya verilir?



**Rusiya Ədliyyə Nazirliyi blogger Aleksandr Lapşinin müraciəti əsasında onun Rusiyaya verilməsi proseduru ilə məşğul olmağa hazır olduğunu bəyan edib. APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə Rusiya Ədliyyə Nazirliyinin mətbuat katibliyi məlumat yayıb.**

"Azərbaycan Respublikasının məhkəmə hökmü qüvvəyə minəndə və Lapşin Rusiyaya verilməklə bağlı müvafiq orqanlara müraciət etsə, 1998-ci il Konvensiyasıya uyğun olaraq, Ədliyyə Nazirliyi Azərbaycanın Ədliyyə Nazirliyi qarşısında onun Rusiyaya verilməsi proseduruna başlayacaq", - deyə məlumatda deyilir.

Rusiya Ədliyyə Nazirliyi qeyd edir ki, Konvensiyaya əsasən, məhkum edilənin özü, yaxın qohumları, qanuni nümayəndəsi və vəkili istər Rusiya, istərsə də Azərbaycanın Ədliyyə Nazirliyinə müvafiq müraciət edə bilər. Məhkumun digər ölkəyə verilməsi üçün onun şəxsi razılığı və hökmün qüvvəyə minməsi əsas şərtlər arasındadır. Lapşinin hökm ilə bağlı şikayət verib-verməməsi hələlik məlum deyil.

Rusiya, Ukrayna və İsrailin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb ediləərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A. Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunub. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Cinayət Məcəlləsinin 318.2 (sərhədi qanunsuz keçmək) maddəsi üzrə təqsirli bilinərək, cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 3 il müddətinə azadlıqdan məhrum edilib.

A. Lapşinə qarşı Cinayət Məcəlləsinin 281.2 (Hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma- Eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi üzrə irəli sürülən ittihama xitam verilib. Məhkəmə bu maddə üzrə ittihamın təsdiqini tapmaması qənaətinə gəlib.

## Kəlbəcər girovları Azərbaycanda həbsdə olan ermənilərlə dəyişdirilə bilər - gözlənti



**Qarabağ münaqişəsində İtkin Düşmüş Şəxslərin Axtarılması, Əsir və Girovların Azad Olunması üzrə Beynəlxalq İşçi Qrupun həmsədrləri Svetlana Qannuşkina, Paata Zakareişvili, Bernhard Klazen 17-18 iyul tarixində Dağlıq Qarabağa səfər edib. Bundan sonra onların Bakıya gələcəyi gözlənilir. Bu barədə İşçi Qrupun Azərbaycandan olan həmsədri Əvəz Həsənov məlumat yayıb. Məlumatda müzakirə olunacaq məsələlər barədə heç nə deyilmir.**

Ehtimal etmək olar ki, bu səfər və qarşıda Bakıya gözlənilən səfərlər zamanı İşçi Qrup Kəlbəcərdə girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması üçün erməni tərəfinin irəli sürə biləcəyi şərtləri öyrənməyə çalışacaq.

Xatırladaq ki, hazırda Azərbaycanda da iki nəfər erməni diversant Zaver Karapetyan və Arsen Baqdasaryan saxlanılır. Onların Kəlbəcər girovları ilə dəyişdirilməsi variantı da müzakirə oluna bilər. Bundan başqa, son vaxtlar Kəlbəcər girovlarının sağlıq durumunun yaxşı olmadığı bildirilir. İşçi Qrup üzvlərinin Şuşa həbsxanasında saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşməsinin mümkünlüyü də ehtimal oluna bilər.

Hələlik bu səfərlə bağlı başqa məlumat verilmir. Yaxın zamanlarda İşçi Qrupun həmsədrlərinin Bakıya səfəri zamanı bəzi mətləblərin aydınlaşacağını gözləmək olar. Bütün hallarda bu səfər Kəlbəcər girovlarının taleyinin aydınlaşmasında mühüm addım ola bilər.

Dağlıq Qarabağa səfərlərə həssaslıqla yanaşan rəsmi Bakının bu səfərə reaksiya verməməsi deməyə əsas verir ki, həmsədrlər Xankəndinə Azərbaycan hökumətinin icazəsi ilə gediblər. Əgər bu səfərə razılıq verilibsə, deməli, müzakirə olunacaq mətləblərdən rəsmi Bakı da xəbərdardır. Bu isə o deməkdir ki, rəsmi Bakı prosesdən xəbərdardır.

❑ frontline.az

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

**Dini Komitənin sədri Mübariz Qurbanlı ilə müsahibəni uzun müddətdir planlasaq da, alınmırdı. Yəqin ki, iyulun 18-də Badamdarda keçirilən "İslam Həmrəyliyi və Media" tədbiri olmasaydı, bu müsahibə də baş tutmayacaqdı. Məhz baş redaktorumuzun o tədbirdə iştirak etməsi sayəsində "tilsim sındı" və DQİDK sədri qəzetimizə müsahibə verməyə razılaşdı.**



# "Əbu Bəkr" məscidi yaxın zamanlarda fəaliyyətə başlayacaq"

**Mübariz Qurbanlı:** ""Yehova Şahidləri"nə icazə versək, burdakı xristian icmaları arasında qarşıdurmanın yayılmasına şərait yaratmış olarıq"



## "Axundovdan tutmuş, Nərimanov, Cəlil Məmmədquluzadəyə qədər, bir çox ziyalılarımız dinə qarşı deyil, xurafata qarşı mübarizə aparıb"

*(əvvəli ötən sayımızda)*

***- Ancaq fakt odur ki, ilk vaxtlar bölgələrdə polis, bələdiyyə işçiləri gedib ehsan süfrələrini yığışdırırdılar...***

- Yox, hardasa, hansısa yerdə baş verən hadisəni ümumiləşdirmək olmaz. Bir hadisədən çıxış edib, onu hamıya aid edə bilmərik. Bu, sadəcə, bir tövsiyə idi, özü də yeni deyildi. Bundan əvvəl də Qafqaz Müsəlmanları İdarəsi əhalini yas mərasimlərində dəbdəbəli süfrələrin olmamasına çağırmışdı. Daha sonra axund və imamlara moizələrdə əhalini buna səsləməyi tapşırmışdı. Sadəcə, biz bunu yenidən gündəmə gətirdik. Çünki yas mərasimlərinin dəbdəbəli olmasının ictimai qınağa səbəb olduğunu görürdük. Əhali də bu adətə riayət edirdi. Buna görə də biz QMİ ilə birlikdə geniş izahat işi apardıq, mediada çıxışlar oldu. Biz din xadimləri vasitəsilə izah etməyə çalışdıq ki, ehsan yeməkdən ibarət deyil. Allah yolunda xeyir iş edə bilərsən.

Yas mərasimlərində ehsan süfrələrinin açılması daha çox keçmişdən qalma adətlərdir. Aparılan izahat işləri müəyyən nəticə verib. Əksər rayonlarda yas mərasimləri "üç mərasimləri" ilə yekunlaşır. Əvvəlki kimi davamlı mərasimlər olmur. Əlbəttə, adət-ənənə elə bir məsələdir ki, uzun illər insanların beyninə hopmuş adətləri birdən-birə aradan qaldırmaq olmur. Xüsusən də dindən gələn adətləri birdən-birə ləğv eləmək mümkün deyil. Təbii ki, dini hökmləri heç kim dəyişə bilməz, onlar konkret hökmlərdir. Ancaq yas mərasimləri dini hökm deyil. Başqa müsəlman ölkələrində bizdəki adətlər yoxdur. Ona görə də tədricən bunları aradan qaldırmaq mümkündür.

***- Azərbaycanda xarici dini təsirlərdən danışdıq. Bu təsirləri azaltmaq üçün Azərbaycanın özündə bir İslam mərkəzi olmalıdır ki, müvəfiq dini hökmlər ordan verilsin, xarici asılılıq azalsın. Belə bir mərkəz yaradıla bilərmi? QMİ ona cavab verirmi?***

- İslam dünyasında vahid fətva mərkəzi yoxdur. Əvvəllər xəlifənin fətvası vahid ümmət üçün hökm sayılıb, ancaq indi bu yoxdur. Fərqli İslam mərkəzləri var. Azərbaycanda QMİ-nin Elmi Dini Şurası, Qazılar Şurası var. QMİ Qafqaz regionunda dini məsələlərlə bağlı fətva səlahiyyətinə malikdir. Onun verdiyi fətva bu bölgə üçün dini baxımdan səlahiyyətlidir. Ancaq biz İslamın qlobal problemləri ilə bağlı dünyadakı fərqli mərkəzlərdən fərqli səslər eşidirik. Biri digərini inkar edə də bilir.

***- Xurafat və radikalizmə qarşı DQİDK ölkə miqyaslı kampaniya başladıb. Bu kampaniyanın təsiri ilə bağlı hansısa rəqəmlər deyə bilərsinizmi? Məsələn, daha əvvəl radikalizmin təbliğ olunduğu necə mərkəz artıq fəaliyyət göstərmir, Quran baxıcıları, falçılar, digər xurafat ənənələrinin azalmasını necə müəyyən edirsiniz?***

- Biz buna kampaniya demirik, bizim vəzifəmizdir. Yuxarıda da qeyd etdiyim kimi, radikalizmə qarşı mübarizə 3 istiqamətlidir. Bunun bir istiqaməti də ideoloji maarifçilik işidir. Digər iki sahədə işi başqa qurumlarla birlikdə həyata keçiririk. Xurafata qarşı mübarizə bu günün işi deyil, İslam meydana gələndən var. Eləcə də bizim klassiklərimiz - Axundovdan başlamış Nərimanov, Cəlil Məmmədquluzadəyə qədər çoxlu sayda ziyalılarımız dinə qarşı deyil, xurafata qarşı mübarizə aparıb. Azərbaycanda heç bir zaman, heç bir ziyalı dinə qarşı mübarizə aparmayıb. Onların mübarizəsi xurafata qarşı idi. Mirzə Ələkbər Sabirin şeirlərini sovet vaxtı dinə qarşı yozurdular. Xurafata qarşı mübarizə həmişə var və olacaq. Xurafat dini bilginin və bütövlükdə bilginin, elmin zəif olduğu zaman yaranır. İnsan anlamaqda çətinlik çəkir və bu zaman xurafat baş qaldırır.

***- Maraqlıdır, xurafatın nə olduğu, hansı əməllərin, hansı görüşlərin xurafat hesab olunduğu və buna qarşı mübarizə aparılmasının tövsiyə olunduğu bir konsepsiya varmı? Nələrdir xurafat və ona qarşı necə mübarizə aparılmalıdır? Bir də ortada konkret bir nümunə varmı ki, bu işlər xurafat hesab edilib və onlara qarşı mübarizə aparılıb? Məsələn, gedib fala baxdırmayın kimi tövsiyələr siyahısı varmı?***

- Xurafat, birincisi, dini kobud şəkildə təhrif etməkdir. İkincisi, Qurani-Kərimdəki ayələri olduğu kimi deyil, müxtəlif əfsanələrlə insanlara çatdırmağa cəhd etməkdir. Üçüncüsü, İslamın tarixini təhrif etməkdir. İslamın yayılması zamanı baş vermiş döyüşləri, tarixi anları olduğu kimi deyil, təhrif etməkdir. Qurandan istifadə edib fal açmaq, dua yazmaq kimi əməllər xurafatdır. Quranda ayə var ki, "Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!" (Maidə, 90-cı ayə).

Yəni burda maarifçilik rol oynayır. Kamil din xadimi dua yazmaz. İndi savadlı din xadimləri yetişib. Savadı, təyinatı olmayan "ara mollaları" deyilən, başına bir papaq qoyub əlinə Quran alanlarla əsl din xadimlərini qarışdırmamaq lazımdır. Ona görə də xurafata qarşı iş həm ideoloji, həm mənəvi, həm də elmi müstəvidə davam etməlidir.

***- Azərbaycanda 100-dən artıq dindar müxtəlif ittihamlarla həbs olunub. Onların bir çoxunu beynəlxalq təşkilatlar "vicdan məhbusu" elan edib. Onların arasında eyni zamanda çoxlu sayda nüfuzlu ruhanilər var. Məsələn, Zülfüqar Mikayıloğlu, son olaraq həbs olunan Sərdar Babayev var. Digərləri də var, adlarını sadalaya bilmirəm, onların hər biri dini camiədə nüfuz sahibidir. Məsələn, konkret Sərdar Babayevə qarşı ittiham Masallıda dəvət əsasında camaat namazı qıldırması ilə bağlıdır. Üstəlik, dövlət başçısı S.Babayevin həbsindən sonra onun ittiham olunduğu maddəni dəyişdirmək təklifi ilə çıxış etdi. Bu şəxslərin həbsi ilə bağlı sizin mövqeyiniz necədir?***

- Birincisi, o insanların kim tərəfindən "vicdan məhbusu" elan olunması müəmmalıdır. Sizin dediyiniz beynəlxalq qurumlar, "beynəlxalq qurum" adı altında öz siyasətlərini həyata keçirməyə cəhd edənlərdir. Azərbaycanda dini etiqad azadlığı var və o həbs olunan şəxslər dini fəaliyyətlərinə görə həbs olunmayıb. Onlar hamısı hansısa qanunu pozduğuna görə həbs edilib. Sizin adını qeyd etdiyiniz adam qeyri-qanuni olaraq dini ayinlərə rəhbərlik edib. Azərbaycan qanunlarına görə, dini ayinləri həyata keçirən şəxs rəsmi təyinatla olmalıdır, Azərbaycanda dini təhsil almalıdır və Azərbaycan vətəndaşı olmalıdır. Dini ayini icra etmək başqadır, dini ayinə rəhbərlik etmək başqa. Mən sizin qəzetə gəlib göstəriş verə bilərəm? Təbii, mümkün deyil, eləcə də məsciddə rəsmi təyinatı olmayan şəxs namaz qıldıra bilməz. Heç Azərbaycanı deməyək, istənilən müsəlman ölkəsində təyin olunmamış şəxs gedib məsciddə xütbə oxuyub, namaza rəhbərlik edə bilərmi?

***- Mənim bu mövzuya toxunmaqda qəsdim o idi ki, ruhanilərin həbsdən azad edilməsi, cəzalarının yüngülləşdirilməsi müəyyən mənada din-dövlət münasibətlərində yumşalmaya səbəb olardı.***

- Biz məhkəmənin işinə qarışmırıq. Məhkəmənin qərarından yalnız yuxarı instansiyaya şikayət verilə bilər. İkincisi, biz istintaqın işinə qarışmırıq, istintaq öz işini görür. Biz bu cür işlərin baş verməməsi üçün onlara QMİ ilə birlikdə imam və axundların toplantılarında dəfələrlə izah etmişik. Mətbuatda bu barədə açıqlamalarımız olub, qəzetimizdə yazmışıq. Yerlərdə olan şöbə müdirləri konfrans və görüşlərdə bu məsələləri çatdırıblar. Dediyiniz məsələdə konkret olaraq qanun pozulub. Axund və imam təyinatını bir qurum həyata keçirir, o da QMİ-dir. Bir sözlə, qanunun aliliyinə hər kəs əməl etməlidir.

***- "Şəhidlər" və Nərimanov rayon "Cümə" məscidinin taleyini soruşmaq istəyirdim.***

- "Şəhidlər" məscidi artıq fəaliyyət göstərir. Axund və imam təyin olunub. Şəhidlər Xiyabanına gələn yerli və xarici ziyarətçilər o məsciddə gedib namaz qılıb ibadət edə bilirlər. Nərimanov rayon "Cümə məscidi"nə gəlincə, DQİDK, Nərimanov Rayon İH və QMİ ilə birgə şəkildə o məscidlə bağlı müzakirələr aparmışıq. Həmin məsciddə icma yaradılması qərarlaşdırılıb və artıq icma üçün gərəkli olan 50 nəfər vətəndaş müəyyən edilib. İcmanın sənədləri QMİ-yə və DQİDK-ya təqdim olunub, hazırda o sənədlərə baxılır. İnşallah, orda icma təsis edildikdən sonra o məscidə QMİ tərəfindən rəsmi din xadimi təyin olunacaq. Təyin olunduqdan sonra həmin məsciddə fəaliyyət davam etdiriləcək.

***- Bugünlərdə "Gallup İnternational" sorğu mərkəzi dünya ölkələrində dini vəziyyətlə bağlı sorğunun nəticələrini elan etdi. Bu nəticələrə görə, Azərbaycanda əhalinin 34 faizi "dindar" olaraq göstərilir. Ciddi müzakirələrə səbəb oldu bu məsələ. Komitə bu sorğunu necə qiymətləndirir, həqiqəti əks etdirirmi? Yəni Azərbaycanda əhalinin bu qədər hissəsi dindardırmı?***

- Biz bu siyahıda son "20-likdəyik", yəni dindarlığın aşağı səviyyədə olduğu ölkələr sırasında 13-cüyük. "Gellap"ın sorğusu yəqin ki, elmi əsaslara söykənir və bunu təkzib etmək üçün əsasımız yoxdur. Bizim özümüzün də araşdırmalarımız olub. Həmin araşdırmalar və aparılan monitorinqlər nəticəsində əldə etdiyimiz rəqəmlərə əsasən Azərbaycan ərazisində məscidlərə getmə, dini ayinlərdə iştirak faizi o qədər də yüksək deyil. Bakıda 134 məscid var. Hər cümə günü monitorinqlər aparılır, amma rəqəm azdır. Bizim qənaətimizə görə, bu onu göstərir ki, Azərbaycan dünyəvi ölkədir və dinlə əlaqədar məsələlərdə tam azadlıq vardır. Bu şəraitdə insanların məscidə getməsi və ya dini ayini evində icra etməsi onun azad seçiminə bağlıdır. Ancaq bu göstərici ölkə əhalisinin dindən uzaq olması demək deyildir.

Sorğuda sualın biri budur ki, "siz müsəlmansınız?", növbəti sualda isə soruşulur ki, "siz müsəlmanın qarşısına qoyulan vacibləri yerinə yetirirsinizmi?" Ancaq "vacibləri yerinə yetirməyən müsəlman deyil" deyə bilmərik. O adam inancı, düşüncəsi, milli-mənəvi dəyərləri ilə müsəlmandır, ancaq ibadətləri yerinə yetirmir.

***- Sonuncu bir sualım. Yuxarıda ilk sualda dediniz ki, bir qurumun işinə özündən üst qurum qiymət verər. Sizin işinizə üst qurumun münasibəti necədir? Üst qurum sizdən razıdır?***

- Razı olmasaydılar yəqin ki, hələ burada davam etməzdim. Ümid edirəm ki, razıdırlar.

**Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü mümkünsüz edən səbəblər

## Dağlıq Qarabağda separatçıların "seçki" şousu danışıqları lüzumsuz edir; ABŞ Dövlət Departamenti separatçılara tərs şapalaq vursa da, həmsədrlər susur; **politoloq:** "Moskvanın problemin həllində ədalətli mövqe sərgiləyəcəyi barədə nağılları birdəfəlik unutmaq lazımdır"

**Rusiyanın Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edəcəyi ilə bağlı yayılan məlumat təsdiqini tapmadı. Rusiya XİN-in informasiya və mətbuat Departament direktorunun müavini Artyom Kojin bildirib ki, görüş təklifinin verilməsi xəbəri uydurmadır.**

Xatırlatmaq yerinə düşər ki, Moskvanın Azərbaycan və Ermənistan prezidentləri arasında bu ilin payızında görüş təşkil edəcəyi haqda məlumatı bugünlərdə "İzvestiya" qəzeti Rusiya XİN-dəki mənbələrə istinadən yaymışdı. Sözügedən məlumatda bildirilirdi ki, Minsk Qrupunun digər həmsədrlərinin, konkret olaraq Fransanın prezidentlərin görüşünü təşkil etmək təşəbbüsü heç bir nəticə verməyib. Beləliklə də prezidentlərin görüşünün təşkili məsələsi ancaq Rusiyanın öhdəsindən gələcəyi məsələyə çevrilib. Əslində Kremlin Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirmək niyyətinə düşməsi tamamilə gözlənilən idi. Hər dəfə təmas xəttində kritik vəziyyət yarananda bölgədə ciddi söz sahibi və təsir imkanları olan Rusiya hərəkətə keçərək gərginliyi azaltmağa çalışır. Ötən ilin aprel döyüşlərindən sonra da Moskva yalnız dörd gün susdu və ardınca hərəkətə keçib tərəfləri masa arxasında əyləşdirməklə Ermənistanı xilas etdi. Bu ilin yay aylarında da işğalçı ordunun döyüş mövqeyindəki obyektlərinin, canlı qüvvəsinin məhv edilməsi səbəbindən İrəvan və onun havadarlarının narahatlığı anlaşılandır. Bu mənada prezidentlərin bir masa arxasında əyləşdirilməsi Ermənistana hava və su kimi lazımdır. Bu ilin mayında Azərbaycanın Ermənistana sarsıdıcı zərbələr endirə biləcəyi xəbərindən narahat olanda da Moskva hər iki ölkənin XİN rəhbərlərinin görüşünü təşkil etmişdi. Amma nə bu, nə də bir müddət əvvəl baş tutan ikinci görüş heç nə ilə yadda qalmadı. Odur ki, dağıdıcı və fəlakətli müharibədən Ermənistanı yayındırmaq üçün növbəti bir görüşün ən yüksək səviyyədə düzənlənməsi gözləniləndir. Ancaq Azərbaycan rəhbərliyinin bəyan etdiyi kimi, uşaq qatili olan Ermənistan prezidenti ilə görüş hər hansı uğurlu nəticə verə bilməz, bunu Kremldə də yaxşı anlayırlar. Tamamilə mümkündür ki, nəticəsiz görüşdənsə, daha bir müddət pauzanın olmasına qərar verilib. Rusiya XİN də bu məlumatı təkzib edir və belə görünür ki, heç rəsmi Moskvanın da Qarabağ danışıqlarını bərpa etməyə həvəsi yox imiş. Xarici İşlər Nazirliyinin Mətbuat departamentinin direktor müavini Artyom Kojin deyib ki, "İzvestiya" qəzetində Rusiya XİN-dəki diplomatik mənbəyə istinadən prezidentlərin Moskvada görüşəcəyi ilə bağlı dərc olunan xəbər həqiqətə uyğun deyil. **"ATƏT-in Minsk Qrupu həmsədrlərinin məsləhətləşmələri zamanı dövlət başçılarının növbəti görüşünün ilin sonunadək təşkil olunması təklif edilib"** - o əlavə edib.

Elə bu sətirləri yazarkən məlumat yayıldı ki, Rusiya prezidenti Vladimir Putin Soçidə Azərbaycan prezidenti İlham Əliyevlə görüşəcək. Virtualaz.org xəbər verir ki, məlumatı jurnalistlərə Putinin mətbuat katibi Dmitri Peskov verib. **"Bu gün axşam Soçidə prezident Putinin və Azərbaycan prezidenti Əliyevin işgüzar görüşü olacaq"** - Peskov 21 iyula planlaşdırılan görüş haqda deyib. Çox güman ki, ikitərəfli görüşdə Qarabağ məsələsi ilə bağlı durum ciddi müzakirə mövzusu olacaq və Azərbaycan prezidenti mövqeyini həmkarına çatdıracaq.

**"Prezidentlərin görüşü ilə bağlı Rusiya XİN təmsilçisinin açıqlaması bir daha sübuta yetirdi ki, Moskvanın Dağlıq Qarabağ probleminin həllində ədalətli mövqe sərgiləyəcəyi barədə nağılları birdəfəlik unutmaq lazımdır". Bunu politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a söylədi. Ekspert xatırlatdı ki, son vaxtlar Rusiyanın "Qarabağ planı" ilə bağlı Azərbaycan mediasında da çoxsaylı məlumatlar yayılır:** "Məncə, bu məlumatların əhəmiyyətli hissəsi həqiqəti əks etdirmir və ictimai rəydə çaşqınlıq yaratmaq məqsədi daşıyır. Rusiya Azərbaycanın ictimai rəyi ilə ciddi şəkildə işləyir. Təbii ki, burada "beşinci kolon"un ucüz təbliğatı da öz rolunu oynayır. Amma özlərini ağıllı sayan, reytinq savaşına çıxan bəzi taxtabaş internet resursların rəhbərlərinin də bu məsələdə "ayı xidmətləri" var. Bilirsiniz, biz birbaşa düşmən ölkənin təbliğatından təsiri altında buraxılan səhvlərin qarşısını ala bilsək də, üçüncü tərəflər vasitəsilə ölkənin informasiya məkanına ötürülən təxribatları tam zərərsizləşdirə bilməmişik".

**E.Mirzəbəyli hesab edir ki, bu məsələlərin araşdırılması, təhlil edilməsi və nəticə çıxarılması üçün ekspertlərdən və analitik təhlil potensialı olan araşdırmaçı jurnalistlərdən ibarət bir qrupun formalaşdırılmasına ehtiyac var:** "Elə məsələlər var ki, onlar KİV müstəvisində müzakirə oluna bilməz".

Diqqəti cəlb edən bir sıra məsələlərin üst-üstə düşməsi və ardıcıllığı maraq doğurur. Son bir həftə ərzində Rusiya-Ermənistan birgə hərbi qüvvələrinin yaradılması Dövlət Dumasında ratifikasiya olundu, Rusiyanın Gürcüstanın içərisi ilə Ermənistana dəhliz açacağı xəbəri ildırım sürəti ilə yayıldı, daha sonra Moskvanın danışan dillərindən biri və planlarının anonsçusu sayılan V.Jirinovski Dağlıq Qarabağ daxil, münaqişə bölgələrinin Rusiyaya birləşdirilməsi, SSRİ-nin bərpa olunması təklifini irəli sürdü. Xüsusilə sonuncu çox təhlükəli məsələdir. Özü də Rusiya qoşunlarının Qarabağda yerləşdirilməsi planının olduğu iddia edilərkən belə bir təklifin ictimailəşməsi təsadüf olmaya da bilər.

**"Rusiya XİN təmsilçisinin və "Jirik"in (Jirinovski) - siyasi piy düyününün açıqlamalarının üst-üstə düşməsinə gəldikdə isə zənnimcə, bunu Kremlin vahid strategiyasının iki ayrı-ayrı müstəvidə - diplomat və kloun səviyyəsində ifadə olunması kimi qiymətləndirmək lazımdır. "Jirik" təlimata uyğun hürür, amma bu, o demək deyil ki, ona XİN-lə eyni anda danışmaq tapşırığı verilib". Bu fikirlər isə E.Mirzəbəyliyə məxsusdur.**

**Politoloq Arzu Nağıyev də prezidentlər arasında növbəti görüşün harada keçirilməsinin dəqiq olmadığını vurğuladı:** "Sadəcə olaraq, Moskvanın təşəbbüsü ilə keçiriləcəyi haqda anons verildi. Görüşün keçirilməsi ilə bağlı böyük güclər, o cümlədən son vaxtlar daha çox Rusiya tərəfindən təkidli tələblər olsa belə, Azərbaycan öz bəlli mövqeyindən çıxış edəcək. Substantiv danışıqlardan başqa digər variantlar bizim üçün qəbulolunmazdır. Bundan başqa, məlum olmayan səbəb də odur ki, bu görüş hansı protokola uyğun olaraq aparılmalıdır. Məhz tam şəkildə aydınlıq gətirildikdən sonra görüş haqda danışmaq olar".

**Arzu Nağıyev hesab edir ki, Jirinovskinin dedikləri Rusiya hakimiyyətinin tam mövqeyi olmasa da, dolayı yolla çatdırmaq istədiyi mesajdır:** "Maraqlısı odur ki, Jirinovski bu bəyanatı Donbasda Malorusiya elan olunanda, Dnestryanı qurumda rusiyameyillik artanda, Poroşenko Tiflis və Sxinvali yaxınlığına səfər edəndə, Abxaziya və Cənubi Osetiyadan Ermənistana blokadanı yarmaq üçün yolun açılması ərəfəsində, Bakı-Tiflis-Qars dəmir yolu ilə bağlı danışmalar gedəndə açıqlayır. Yəni müstəqil siyasət yeritmək istəyən regional dövlətlərin istənilən addımlarına mane ola biləcək çıxışlar edən Jirinovski dolayı yollarla Putin administrasiyasının
SSRİ-nin bərpası ilə bağlı fikirlərini daha aydın şəkildə çatdırır. Cənab Jirinovski özü də bir təcrübəli siyasətçi və hüquqşünas kimi dediklərinin cəfəngiyyat olduğunu, bütün beynəlxalq norma və prinsiplərə zidd danışdığını gözəl başa düşür. Bu, ruspərəst qüvvələrə bir eyham, çağırış, deyərdim ki, təlimatdır".

**Ekspert bir məqamı da vurğuladı:** "Son vaxtlar onsuz da Azərbaycanın siyasi və iqtisadi sahədə, beynəlxalq səviyyədə apardığı siyasət bir sıra regional oyunçuları, eyni zamanda Rusiyanı qıcıqlandırır. Bu, üçtərıfli regional dövlətlərlə yaradılan platformalarla da, TANAP və digər layihələrlə də bağlıdır. Təəssüf ki, ATƏT-in Minsk Qrupunda məhz regional konfliktlərin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu. araşdırmalı olduğu halda, açar fiqur olan Rusiyanın mühüm post sahibi belə bəyanatlar verir. Bu, ilk növbədə Rusiyanın özünə başucalığı gətirmir".

***

Bu arada separatçı Qarabağ rejiminin keçirdiyi "seçki" şousunda ABŞ-dan reaksiya verilib. Bildirilib ki, ABŞ Dağlıq Qarabağda keçirilən qondarma prezident seçkilərinin nəticələrini tanımayacaq (APA). "Münaqişənin hərtərəfli nizamlanmasında biz Dağlıq Qarabağ əhalisinin öz gələcəyini müəyyənləşdirməkdə rolunu qəbul edirik. Lakin ABŞ Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımır və biz iyulun 19-da keçirilən qondarma seçkilərin nəticələrini tanımırıq. Bu seçkilər Dağlıq Qarabağın hüquqi statusuna təsir etməyəcək. Biz həmçinin vurğulayırıq ki, qondarma seçkilər Dağlıq Qarabağın yekun statusu və Dağlıq Qarabağa davamlı və sülh həlli gətirəcək mövcud danışıqların nəticəsini müəyyənləşdirmir" - Dövlət Departamentinin cavabında qeyd olunub.

Çox maraqlıdır ki, ordumuzun düşmən qüvvələrini məhv etməsinə operativ reaksiya verən ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ separatçılarının bu özbaşınalığına münasibət bildirməyib.

Əslində Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün baş tutmamasının, Rusiyanın istəklərinə rəğmən bu təmasın alınmamasının səbəbi Qarabağda "seçki" oyunu oynayan Ermənistandır. Ermənistanın müdafiə naziri ötən həftə Qarabağa qanunsuz səfər etmişdi və bunun ardınca "seçki" şousu həyata keçirildi. Bütün bunlardan sonra oturub sülh danışıqlarından danışmağın heç bir mənası qalmır, bunu görüş təşəbbüskarları da yaxşı anlayır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

# Türkiyə zəlzələsi Azərbaycana da təsir edə bilərmi?

## Ekoloq və seysmoloqlar ölkəmizə təhlükə görmürlər, çünki...



**İyulun 20-də, gecə saatlarında Türkiyə və Yunanıstanın Egey dənizi sahillərində zəlzələ baş verib. 6,3 bal gücündə olan ilk təkandan sonra ardıcıl olaraq 51 zəlzələ qeydə alınıb. İlkin məlumatlarda 2 nəfərin həlak olduğu deyilsə də, rəsmi məlumatlara görə, baş verən zəlzələ nəticəsində Türkiyədə 70-dək, Yunanıstanda isə 100-ə yaxın insan xəsarət alıb.**

Qardaş Türkiyədə baş verən zəlzələ ölkəmizdə də həyəcana səbəb olub. Azərbaycanda da zəlzələ təhlükəsi olub-olmaması ilə bağlı suallar doğurub.

"Türkiyədə baş verən zəlzələnin Azərbaycana heç bir təsiri yoxdur, ola bilməz". **Bu sözləri Respublika Seysmoloji Xidmət Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli** APA-ya açıqlamasında deyib. Onun sözlərinə görə, məsafə çox olduğuna görə zəlzələ Azərbaycan ərazisinə təsir etməyib: "Zəlzələnin episentri dənizdə, Türkiyənin Bodrum şəhərindən 10 kilometr məsafədə yerləşib. Zəlzələ qeydə alınan yer tamam başqa regiondur. Orada gedən tektonik proseslərin, dərinlik qırılmalarının Azərbaycanla, ümumiyyətlə, bağlılığı yoxdur. Əhalinin təşvişə düşməsinə heç bir əsas yoxdur".

**Q.Yetirmişli əlavə edib ki, Azərbaycan ərazisində tektonik proseslərlə bağlı narahatlıq mövcud deyil:**

"Zəif təkanlar hiss olunsa da, qorxulu heç nə yoxdur. Dünən Saatlıda zəlzələ olub, amma yüngül təkandır, təhlükəli tərəfi yoxdur". **Respublika Seysmoloji Xidmət Mərkəzinin şöbə müdiri Tahir Məmmədov da** "Qaynarinfo"ya açıqlamasında bildirdi ki, zəlzələnin ölkəmizə təsiri yoxdur: "Türkiyə və Azərbaycan ayrı-ayrı zonalardır. Onun bizə heç bir təsiri yoxdur. Güclü zəlzələ hər yerdə ola bilər. Bunu əvvəlcədən deyə bilmərik. Sadəcə, oradakı prosesin bizimlə əlaqəsi yoxdur. Azərbaycanda potensial zəlzələ ocaqları var. Dünən Saatlıda 3-4 bal gücündə zəlzələ baş vermişdi. Əvvəllər güclü zəlzələlər olub, gələcəkdə də olacağı istisna edilmir. Sadəcə, dediyim kimi, dünyanın heç bir yerində bunu əvvəlcədən müəyyən edə bilmirlər. Ən böyük problem də budur".

**Ekoloq Telman Zeynalov isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, ümumiyyətlə, zəlzələ ocaqlarının öz istiqamətləri, yolları var:** "Azərbaycanın yolu tamamilə başqadır. Qara dənizin yolu isə tamamilə Şərqə, ərəb ölkələrinə, Əfqanıstana doğru gedir. Qara dənizin istiqaməti o tərəfdir. Bizim ölkəmizin yolu isə Orta Asiya, Qazaxıstan tərəfdir".

❑ Xalidə GƏRAY

# Nazirlik əhaliyə xəbərdarlıq elədi



**Dağıstan Respublikasının Babayurd, Noqay, Tarumov və Qızılyar rayonlarında 100 min hektara yaxın ərazi çəyirtkələrin hücumuna məruz qalıb. Bununla bağlı artıq həmin rayonlarda ziyanverici həşəratlara görə fövqəladə vəziyyət elan edilib. Yerli hökumət həşəratlarla mübarizə tədbirlərini gücləndirib.**

Kənd Təsərrüfatı Nazirliyindən müsavat.com-a bildiriblər ki, Dövlət Fitosanitar Nəzarəti Xidməti çəyirtkə sürüsünün Azərbaycan ərazisinə keçməsi təhlükəsini nəzərə alaraq Respublika Bitki Mühafizə Mərkəzinin mobil bitki mühafizə dəstələrinin maddi-texniki bazasını müvafiq tələblərə tam uyğunlaşdırıb və çəyirtkəkimilərlə mübarizəyə maddi-texniki baxımdan tam hazır vəziyyətə gətirib. Dövlət Xidmətinin balansında olan maşın-mexanizmlər işlək vəziyyətdə saxlanılır ki, çəyirtkəkimilərin miqrasiyası baş verdikdə, dərhal qarşısı alınsın və kənd təsərrüfatı bitkilərinə ziyan vurmasına imkan verilməsin.

Dağıstanla həmsərhəd rayonlarda və dövlət ehtiyat fond torpaqlarında çəyirtkəkimiləri nəzarətdə saxlamaq məqsədilə mütəmadi monitorinqlər həyata keçirilir və çəyirtkəkimilərin sayının iqtisadi ziyanvermə həddindən çox olan ərazilərdə mübarizə tədbirləri aparılır. Mübarizə tədbirləri zamanı əsasən "Pikap" tipli, ultra kiçik həcmli müasir və yüksək manevr qabiliyyəti olan "AU 8115 M" çiləyici aqreqatlar və yerüstü çiləyicilərdən istifadə olunur.

Dövlət Fitosanitar Nəzarəti Xidməti fermer təsərrüfatı sahiblərinə və sahibkarlara xəbərdarlıq edərək bildirir ki, əkin sahələrində, fermer təsərrüfatlarında adıçəkilən zərərvericilərin kütləvi hücumu baş verərsə, dərhal çağrı mərkəzinə zəng etmək və ya Dövlət Xidmətinin yerli qurumlarına məlumat vermək lazımdır.

# Dönərxanalardan gələn təhlükə: brüsellyoz, qurd xəstəlikləri və xərçəng...

## İstehlakçılara hələ də mənşəyi bəlli olmayan ətdən hazırlanan dönər satılır; satıcı alıcıları əmin, ekspertlər isə xəbərdar edir...




**Yay fəslinin ən çox sevilən fast-food qidalarından biri də dönərlərdir. İş başında olanlar, gəzintiyə çıxanlar, qaçaraq işlərdə çalışanlar daha çox dönərə üstünlük verir. Səbəb isə həm qiymətinin ucuz olması, həm tez hazırlanması və istənilən şəraitdə ayaqüstü yeyilə bilməsi, həm də asılılıq yaradacaq özünəməxsus dadının olmasıdır.**

Lakin əksər hallarda dönərlərin insan sağlamlığı üçün ziyanlı olması barədə ekspertlər dəfələrlə xəbərdarlıq ediblər. Şəhərin mərkəzi küçələrində 1 manata , 1 manat 50 qəpiyə satılan dönərlərin qiyməti belə onun keyfiyyətindən xəbər verir. Bundan əlavə, dönərin bişirilmə texnologiyası da onun nə qədər zərərli olmasını göstərir.

Dönərə vurulan ətlərin mənşəyi, haradan gətirilməsi isə ayrı bir müzakirə mövzusudur. "Yeni Müsavat"ın müxbiri paytaxtın mərkəzi küçələrində daha çox sadə camaatın müraciət etdiyi dönərxanalara bir daha baş çəkib, vəziyyətlə maraqlanıb.

Qeyd edək ki, əksər dönərxanalarda şişə taxılan dönər ətləri qazla qızardılır. Aparat elə quraşdırılıb ki, alov dilləri birbaşa əti yandırır. Ütülmüş ət layı xüsusi bıçıqla ümumi kütlədən yonulur və qaba tökülür. Ət bişdikcə onun içində əriyən piyin yağı ilə yanaşı, çiy ətdən ayrılan qanlı su da yonulmuş ətlərin üzərinə tökülür. Ətin haradan alınmasına gəlincə, satıcılar topdansatış ət satışı yerlərindən aldıqlarını bildirdilər. Əksəriyyəti "8-ci kilometr" bazarının ət satışı hissəsindən aldığını etiraf etdi. Orada hansı keyfiyyətdə ətlərin satıldığını isə dəfələrlə əməkdaşlarımız işıqlandırıblar.

Ətin və dönərə qatılan digər məhsulların sertifikatını tələb etsək də, çox az dönərçi bu sənədləri təqdim edə bildi. Gigiyenik qaydalara riayət olunmasına gəlincə, bir çoxlarının əynində ağ xalat və əlcək belə yoxdur. Həmçinin dönərxanaların yol kənarına yaxın yerləşməsi və açıq pəncərənin önündə bişirilməsi yoldan qalxan toz-torpağın da ətin üzərinə çökməsinə səbəb olur.

**7 ildir ki, paytaxt ərazisində müxtəlif dönərxanalarda işləyən Xəyal İsgəndərov deyir ki, dönər hər zaman ayaqüstü yeməklər arasında ən sevilənidir:** "Dönəri pisləyənlərin özləri də yeyirlər. Dönərə vurulan ətin at, eşşək, ölü heyvan əti olduğunu düşünənlər olur. İndi daha çox toyuq ətindən dönər satırlar. Mənim işim-gücüm qurtarıb, ölü toyuq əti axtarım? Hamısı "Səba"nın toyuq ətləridir. Kiloqramını 4 manat 50 qəpikdən alıram. Hər gün camaatın gözü önündə dönər rulonuna 16 kiloqram ət vururam".

**Dönərçi deyir ki, zəhərlənmə halları da ola bilər, bu, istisna deyil:** "Bilirsiniz, hamı elə bilir bu cür xoşagəlməz hallar bütün dönərxanalarda olur. Dünəndən qalan ətləri dönər rulonunun üzərində saxlayıb, səhəri gün yenidən qızdırıb satırlar. Ət dəmirin üstündə qalır, ətin büküldüyü metalla reaksiyaya girir. Zəhərlənmə bu cür yaranır. Bizim dönərxananın sahibi ibadət əhlidir. Özü şəxsən tez-tez nəzarət edir. Çox adam deyir ki, 1 manata dönər olar? Axı niyə də olmasın. Gərək dönər 2 manat olsun? Tutaq ki, 16 kiloqramlıq ətə 72 manat pul verirəm. Biz əsas xərcini çıxandan sonra üstündə 20 manat qalanda kifayətlənirik. Çünki dönərin yanında ayran, su, qazlı sular da satırıq. Hərəsindən 15-20 manat qazanc qalanda bizə bəs edir".

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan həkim Seyfəddin Əsəd bildirdi ki, dönər insanlarda müxtəlif xəstəliklərin yaranmasına yol aça bilər:** "Dönərin bişirilmə texnologiyası elədir ki, onun üzü yanır, ancaq içi bişmir. Ətin yaxşı bişməməsi brüsellyoz xəstəliyi əmələ gətirir. Üzünün yanması isə xərçəng xəstəliyinə meyllilik yaradır. Çünki bu cür yanan ətdə kanserogen maddələr yaranır və bu da xərçəngə yol açır. Digər bir problem odur ki, ətin mənşəyi bilinmir. Ondan başqa, insanlarda mədə-bağırsaq xəstəliklərinin əmələ gəlməsinə səbəb olur, qəbizlik əmələ gətirir. Həzm sistemini pozur. Dönərə xüsusi qatqı maddələri vurulur və o, insanlarda asılılıq yaradır. Həmin qatqılar da insan sağlamlığı üçün olduqca zərərlidir. Onların ən çox yaratdığı xəstəliklər xərçəngə meyllilik və qurd xəstəlikləridir. Ət tam bişmədiyi üçün qurd xəstəlikləri yarada bilir. Ət suda qaynamırsa, o tam bişə bilməz".







**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da vurğuladı ki, dönərxanaların 90 faizində dönərin hazırlanması və satışı ilə bağlı standartlara əməl edilmir:** "3 il öncə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi dönərlərin standartını hazırladı. O zaman dönərləri təzə ətdən hazırlayıb şişə taxan, sonra onu "skoç"la büküb soyuducuda mikrobları öldürmək üçün şok dondurmaya məruz qoyan, daha sonra ətləri həmin vəziyyətdə soyuduculu avtomobillərlə dönərxanalara çatdıran müəssisələr müəyyən olundu. Lakin dövlətin bu xoş arzusu həyatda öz əksini tapmadı. Bizim monitorinqlər göstərdi ki, dönərxanaların 95 faizində ətlər mərkəzləşdirilmiş qaydada, həmin standartlara uyğun yerlərdən alınmır. Haradan gəldi, necə gəldi, mənşəyi bilinməyən ətlər alınır. İstisna olunmur ki, istənilən murdar heyvanın əti dönərxanalarda ola bilər".

**Ekspert vurğuladı ki, dönərxanaların problemi təkcə ətin mənşəyi ilə bağlı deyil:** "Problemlərdən biri də şişə taxılmış dönər ətinin üzünün ütülməsi, içinin isə bişməməsidir. Bişməmiş ətin içindən mayenin, qan plazmasının axıb hazır dönər ətinin içinə tökülməsidir. Hazır dönər ətinə qarışan bu plazma heyvanda olan xəstəliklərin istehlakçıya yoluxmasına gətirib çıxarır. Burada heyvanların bədənində olan baytarlıq dərmanlarının qalıqları, antibiotiklər, heyvana məxsus digər xəstəliklər həmin plazma vasitəsilə axır və dönərə qarışır. Dönərlər ilk baxışdan insanlar üçün cəlbedicidir. Ona görə ki, o, ütülmüş ətdir, insan da hələ mağara dövründən ütülmüş əti sevir. O baxımdan, insanlar dönəri sevə-sevə yeyirlər. Azərbaycanda mənşəyi bəlli olmayan ətlərdən bişən, içi tam bişməmiş halda istehlakçıya verilən dönərlər əlbəttə ki, təhlükəlidir".

❑ Nərgiz LİFTİYEVA
Fotolar müəllifindir



# Hökumət dövlət büdcəsi hesabına ABB-ni xilas edir

## Plan baş tutacaqmı? Əkrəm Həsənov: “Cari durumda bank müflislikdən xilas oldu və hətta mənfəətə çıxdı”

**Xəbər verdiyimiz kimi, Azərbaycan Beynəlxalq Bankının kreditorları öhdəliklərinin könüllü restrukturizasiyası planını qəbul edib. Bu barədə bankdan məlumat verilib.**

Bildirilib ki, bununla bağlı keçirilən yığıncağın nəticələrinə əsasən, restrukturizasiya olunan öhdəliklərin 94.1%-ə malik kreditorlar səsvermə prosesində iştirak edib və onların 93.9%-i planın lehinə səs verib. “Banklar haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, planın qəbulu üçün öhdəliklərin 2/3 hissəsinə sahib kreditorların razılığı tələb olunur. Maliyyə Bazarlarına Nəzarət Palatasının razılığı və Nəsimi Rayon Məhkəməsinin təsdiq qərarından sonra restrukturizasiya planı hüquqi qüvvəyə minəcək.

Restrukturizasiya nəticəsində bankın təxminən 3,34 mlrd. ABŞ dolları məbləğində xarici öhdəliyi ləğv ediləcək, əvəzində xarici kreditorlara bank və dövlət tərəfindən buraxılmış yeni qiymətli kağızlar təqdim olunacaq. Bununla yanaşı, üstün hüquqa malik və subordinasiya borcları üzrə hüququ çatan kreditorlara 10 may - 1 sentyabr 2017-ci il tarixləri ərzində hesablanmış, lakin ödənilməmiş faizlər ödəniləcək. Bəs görəsən, bu yolla ABB-ni xilas etmək mümkün olacaqmı?

**Bu sualı cavablandıran iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov bu prosesdə qanunazidd məqamların olduğunu bildirdi:** “Məlum olduğu kimi, ABB-nin kreditorlarının, yəni xarici kreditorlar və Dövlət Neft Fondu 93 faizi onun öhdəliklərinin könüllü restrukturizasiya planını dəstəkləyib. 7 faizin planın əleyhinə olması onu göstərir ki, hər bir halda kreditorlar müəyyən güzəştlərə getməli oldu və həmin güzəştlər kreditorların 7 faizini qəti qane etməyib. Xatırladıram ki, ABB də ilkin güzəşt tələblərindən əl çəkməli olmuşdu, buna baxmayaraq, yumşaldılmış planın da əleyhinə olanlar oldu. Lakin bank elan edib ki, plan bütün kreditorlara münasibətdə qəbul olunmuş hesab olunur.

Çünki guya tələblərin ən azı 2/3 hissəsinə, yəni 3,337 mlrd. dollardan təxmini 2,235 mlrd. dollarına malik olan kreditorların razılığı kifayətdir. Nəticədə isə 2/3 deyil, hətta daha çox səs (93%) toplanıb. Lakin bu mövqenin hüquqi əsasları çox şübhəlidir. Belə ki, ABB və Palata “Banklar haqqında” Qanuna bu ilin aprel ayında tez-tələsik daxil edilmiş 57-11.11-ci maddəyə istinad edir. Həmin maddədə həqiqətən deyilir: **“Tələbləri restrukturizasiya planına daxil edilmiş kreditorlar tərəfindən restrukturizasiya planının təsdiq edilməsi üçün restrukturizasiya planına əsasən restrukturizasiya edilməsi nəzərdə tutulan tələblərin ən azı üçdə iki hissəsinə malik olan kreditorların razılığı tələb edilir”.** Amma sözügedən maddə Mülki Məcəllənin 421.1-ci və 522.2-ci maddələrinə ziddir. Aprel ayında qanuna düzəlişlər qəbul ediləndən bu barədə dəfələrlə fikrimi bildirmişəm. Belə ki, 421.1-ci maddədə deyilir: **“Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, tərəflərin razılaşması ilə mümkündür”.**

522.2-ci maddədə isə vurğulanır: **“Əgər borclu ilə öhdəliyin üçüncü şəxsə veriləcəyi barədə razılaşma əldə edilərsə, bu yalnız kreditorun icazəsi ilə etibarlı olur”.** Yəni Məcəlləyə əsasən qərar 2/3 səs çoxluğu ilə deyil, yekdil (yaxud da hər kreditora münasibətdə ayrıca) qəbul edilməli idi. Xatırladıram ki, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 2.5-ci maddəsinə müvafiq olaraq Mülki Məcəllə digər məcəllə və qanunlardan üstün hüquqi qüvvəyə malikdir, buna görə də “Banklar haqqında” Qanunun sözügedən maddəsi əhəmiyyətsizdir. Bir sözlə, ABB-nin bütün kreditorlarının razılığı tələb olunur. Buna görə də istisna deyil ki, bu səbəbdən azlıqda qalmış xarici kreditorlar (7%) qəbul edilmiş qərarı məhkəmədə mübahisələndirə bilər. Bu halda məsələ ən azı həmin 7 faiz kreditorlara münasibətdə böyüyə bilər".

**Ekspert bildirdi ki, hətta kreditorlar məhkəməyə müraciət etsə belə, bank üçün artıq təhlükə görünmür:** “Tutaq ki, lap həmin 7 faiz kreditor məhkəmə qaydasında restrukturizasiya planının onlara şamil edilməməsi haqda qərarın qəbuluna nail ola bildi. Onların tələbləri cəmi 233 mln. dollar təşkil edir. Bankın maliyyə vəziyyəti üçün bu, artıq elə də əhəmiyyətli rəqəm deyil. Belə ki, bankın ötən ilin sonuna olan zərəri 1 mlrd. dollardır. Restrukturizasiya nəticəsində isə dövlət ona faktiki 3,337 mlrd. dollar bağışladı və həmin borcları öz üzərinə götürdü. Deməli, ABB nəticədə 2,337 mlrd. dollar mənfəətə çıxdı. Buna görə də ən pis halda bank həmin mənfəət hesabına uzaq başı həmin 7 faiz kreditorun tələblərini tam ödəyə də bilər. Buna görə də ən azı cari durumda bank müflislikdən xilas olundu və hətta mənfəətə çıxdı. Bundan sonra nə baş verəcək - bu artıq bankın rəhbərliyindən asılıdır. Hələlik bankın yeni rəhbərliyi uğursuz fəaliyyət göstərir və xeyli səhvə yol verib. Bunun rəhbərliyin peşəkarlıq səviyyəsinin, yaxud aidiyyəti dövlət qurumlarının müdaxiləsinin nəticəsi olduğunu hələlik dəqiq söyləmək çətindir. Hər bir halda bu, narahat etməyə bilməz. Lakin ümid edək ki, yaxında bank özəlləşdiriləcək və daha səmərəli idarə olunacaq. İstənilən halda yaxın illərdə bu bankın kreditorları, xüsusən əmanətçiləri üçün ciddi təhlükə görmürəm”.

**Ə.Həsənovun sözlərinə görə, indi əsas məsələ dövlətə bu qədər ziyan vuran şəxslərin cəzalandırılmasıdır:** “Bizi indi digər iki məsələ daha çox düşündürməlidir. Əvvəla, bank dövlət vəsaiti hesabına xilas olundu. Yəni bizim hesabımıza. Buna görə də hesab edirəm ki, bankın bu vəziyyətə düşməsinin bütün təqsirkarları cəzalandırılmalıdır. Habelə itirilmiş vəsaitlərin qaytarılması üzrə ciddi tədbirlər görülməli və bu barədə ictimaiyyət daim məlumatlandırılmalıdır. Lakin təəssüf ki, ABB-nin problemli kreditlərini idarə edən, başda Məmməd Musayev olmaqla, "Aqrarkredit" təşkilatı bu işlə çox məxfi məşğul olur. Bir ildən çoxdur fəaliyyət göstərsə də, nəticə yoxdur, ən azı ictimaiyyətə açıqlanmayıb. Halbuki xalqın vəsaiti hesabına xilas olunan bankın problemli kreditlərinin toplanılması üzrə işin necə getməsini bilmək bizim haqqımızdır".

**Hüquqşünas qeyd etdi ki, dövlət bankın səhmdarlarına təxminən 195 mln. manat bağışlayıb:** “ABB-nin səhmlərinin təxmini 95 faizi dövlətə məxsusdur. Qalan 5 faiz fiziki və hüquqi şəxslərə mənsubdur. Dövlət bankın borclarını üzərinə götürməklə faktiki həmin səhmdarlara da hədiyyə etmiş oldu. Yəni onlar de-fakto müflis bankın səhmdarları idilər və de-jure müflisləşmə nəticəsində onlara 1 qəpik də çatmayacaqdı. Amma indi mənfəətə çıxmış bankın səhmdarı oldular və səhmlərinin bazar dəyəri nominal dəyərdən də çox oldu. Hesablamalarıma görə, faktiki olaraq, dövlət həmin səhmdarlara təxmini 195 mln. manat bağışladı. Bunun nə dərəcədə düzgün olmasının özü sual doğurur. Daha yaxşı olardı ki, dövlət onların da səhmini məhkəmə qaydasında əvəzsiz əldə edərdi. Çünki bankın xilası sırf dövlət vəsaiti hesabına baş verdi. İndi isə belə çıxdı ki, bizim hesabımıza nəinki bank xilas olundu, həmçinin hansısa özəl şəxslər də əsassız varlandı. Bunu ədalətsiz hesab edirəm”.

❑ Nərgiz LİFTİYEVA



## Adı silahlı insidentdə keçən idmançı Bakıda “Galendewagen”lə adam öldürdü

**Bakıda piyadanın vurulması və ölümü ilə nəticələnən daha bir yol qəzası baş verib. Virtualaz.org xəbər verir ki, ötən gün axşam saatlarında Xəzər rayonunun Buzovna qəsəbəsi ərazisində 1984-cü ildə anadan olmuş Şəfiyev Bəhmən Süleyman oğlu idarə etdiyi “Mercedes Galendewagen” markalı avtomobillə yolu keçməyə çalışan piyada - 1959-cu ildə anadan olmuş Musayev Elman Zaman oğlunu vurub. Piyada aldığı ağır xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı cinayət işi qaldırılıb, piyadanın ölümünə səbəb olan qəzanı törədən sürücünün saxlanıldığı haqda məlumat yoxdur.**

Həmin Bəhmən Şəfiyevin adı bundan əvvəl Bakının “Kral” restoranında baş vermiş silahlı insidentdə çəkilib. Belə ki, ötən il Bakı Apelyasiya Məhkəməsində silahlı insident törətməkdə ittiham olunan Bakı şəhər sakini Sənan Dünyamalıyevin işi üzrə məhkəmə keçirilib. O, silahdan atəş açmaqda və xuliqanlıqda ittiham olunurdu. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, hadisə 6 iyun 2015-ci ildə “Kral” şadlıq sarayının binasında baş verib. S.Dünyamalıyev özündə olan “Shurshill” markalı ov tüfəngindən atəş açıb, atəş nəticəsində şadlıq sarayının pəncərə şüşələri sınıb.

Aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində müəyyən edilib ki, əvvəllər məhkum olunmuş Sənan Dünyamalıyev, Cavid Ağalarov və Bəhman Səfiyev iyunun 6-da saat 17 radələrində “Neftçi” təlim-məşq mərkəzində tələbələri ilə məşq edən Şəhriyar Abbasova mane oldular. Sonuncu iradını bildirdikdə Sənan Dünyamalıyev Şəhriyar Abbasovu “Kral” şadlıq sarayının qarşısına “razborka”ya çağırıb. Sənan Dünyamalıyev, Cavid Ağalarov, Bəhman Səfiyev bir qrup şəxslə həmin gün qeyd edilən ünvana gedib Şəhriyar Abbasovla məşq mərkəzində yaranmış mübahisəni davam etdiriblər.

Bu zaman Sənan Dünyamalıyev gəldikləri avtomaşından “Vinçester” tipli tüfəngi götürüb, havaya atəş açıb, nəticədə “Kral” şadlıq sarayının pəncərəsinin şüşələri sınıb. Mübahisə zamanı Şəhriyar Abbasovun tələbəsi Ramil Vəliyevə sağ bud nahiyəsindən bıçaqla xəsarət yetirilib. Sənan Dünyamalıyev daha sonra könüllü olaraq Nərimanov Rayon Polis İdarəsinin 16-cı bölməsinə gəlib və hadisə zamanı istifadə etdiyi ov tüfəngini təhvil verib.

YENİ MÜSAVAT
N 153 (6767) 22 iyul 2017

# Etìbardan suì-ìstìfadə, hìmayədar məmur, ədalətsìz məhkəmə

## Bir ortaqlığın süqut etməsi əhvalatı...



**Dünyanın ən zor işlərindən biri də biznes ortaqlığıdır. Yüz illərdir azad bazar iqtisadiyyatının, sahibkarlıq ənənələrinin mövcud olduğu ölkələrdə bu, problem deyil, biznesə qoyulan sərmayə də, əldə olunan mənfəət də payçılar arasında zərgər dəqiqliyi ilə bölünür, əlavə söz-söhbətə, mübahisəyə, cığallığa yer qalmır.**

Fəqət Azərbaycan tipli ölkələrdə bu kimi münasibətlər biznes ənənələrindən, iqtisadi mexanizmlərdən, müvafiq sazişlərdən və sair sənədlərdən çox, ortaqların vicdanından, insafından, göztoxluğundan asılı olur. Bəzən ortaqlardan biri və ya ikisi tamahkarlıq edəndə, öz şəriklərinə kələk gəlmək istəyəndə, fırıldaq gələndə, etibardan sui-istifadə edəndə ortaya böyük mübahisələr çıxır, haqq-ədalət pozulur, biznesmenlər, ev alanlar ziyana düşür, qurulu iş bərbad olur, hamı əziyyət və ziyan çəkir.

Başına uyğun iş gəlmiş bir sahibkar əli hər yerdən üzüldüyü üçün redaksiyamıza müraciət edib. Onun ad-soyadı Ağayev Etibar Əkbər oğludur. İş dünyasında onu Hacı Etibar kimi tanıyırlar. Hacı Etibarın söhbətindən belə anlaşılır ki, onun etibarından sui-istifadə ediblər.

**E.Ağayevin söhbəti:** "65 yaşım var. İndiyə qədər şikayət ərizəsi ilə heç bir ünvana müraciət etməmişəm. Şikayət etməyə məni vadar edən mənim ailəvi dostum olmuş Quliyev Kamal Sadat oğludur".

**Uzun müddətdən bəri ev tikintisi ilə məşğul olan Hacı Etibar Kamal Quliyevdən nəyə görə şikayətçi olduğunu danışır:** "2008-ci ildə Kamalın xahişi ilə mən onu tikintiyə gətirdim. Onunla birlikdə 4 bloklu bir ev tikdik. Həmin tikintidə mənim payım 60%, onunku 20% olmasına baxmayaraq, Kamalın istəyil ilə bir dost kimi bütün səlahiyyətləri (idarəçiliyi, tikinti materiallarının alınmasını, mənzillərin satışını, işə qəbul məsələlərini və s.) ona verdim".

Əlbəttə ki, biznes münasibətləri oturuşmuş ölkələrdə belə etməzlər, ən yaxın dosta güvənsələr də, etibar etsələr də, vaxtaşırı yoxlayarlar. Amma hiss olunur ki, Hacı Etibar ailəvi dostuna həddindən artıq etibar edib. Heç demə, onu iş-güclə daha çox yükləməyi Kamal Quliyev özü xahiş edibmiş.

**Etibar Ağayevin söhbəti:** "Növbəti 1 bloklu ev tikintisi zamanında bütün səlahiyyətlər onda olub. O, mənim etimadımı qazanmışdı və buna görə faktiki olaraq onun fəaliyyətinə nəzarət etmirdim, ona inanırdım. Hətta təzə tikintiyə başlayanda deyirdim ki, mənim nümayəndəm Kamaldır. 2012-ci ildə biz 4 təsisçi, hər birimizin payı 25% olmaqla, "TVİNS-ART" MMC-ni təsis etdik. Xətai rayonunda, Məhəmməd Hadi küçəsindəki 2944-cü məhəllədə bina tikintisinə başladıq. MMC-nin icraçı direktoru olsa da, 5 blokun tikintisinə rəhbərliyi Kamal ələ keçirmişdi. Axır vaxtlar mən hiss etdim ki, Kamal mənə qarşı rəftarında dəyişib, aramızda süni şəkildə münaqişə yaratmağa cəhd edir. Müəyyən müddət keçdikdən sonra o, başqa bir ortağıma qarşı da bu hərəkətləri etdi. "TVİNS-ART" MMC-də və satışından daxil olan külli miqdarda vəsaiti özbaşına götürərüb və vəsaiti başqaları ilə başladığı yeni tikintidə sərmayə kimi istifadə edib. Bundan sonra TVİNS-ART MMC-dən ev alan sakinlərin haqları tapdanıb, mənzillərin tikilib təhvil verilməsi maliyyə çatışmazlığı səbəbindən planlaşdırıldığı vaxtdan gecikib".




**E.Ağayevin sözlərinə görə, o, bununla bağlı araşdırma aparıb və müəyyən edib ki, Kamal Quliyev onlarla birlikdə çalışdığı vaxt oğurladığı pullarla dövlətdə mühüm post tutan bir məmurun nümayəndəsi ilə 2015-ci ildə "AMAL" MMC adlı müəssisə təsis ediblər və ev tikintisinə başlayıblar:** "Onların işbirliyinin yaranmasına səbəb Kamalın əvvəllər apardığımız tikintidən həmin məmurun nümayəndəsinə əvvəlcə ikimərtəbəli, bir müddət sonra isə üçmərtəbəli mağazalar satması olub. Bununla bağlı onların arasında işgüzar münasibətlər yaranıb və bizimlə birlikdə çalışdığı müddətdə onlar bizim işimizə aid olmayan, sahəsi 600 m2 olan mağaza tikib və tikintidə bizim materiallardan istifadə edib".

Başqa sözlə, Etibar Ağayevin dediklərindən belə anlaşılır ki, təbiətcə fərasətli və ünsiyyətcil adam olan, qulluq göstərməyi, iş yarıtmağı bacaran Kamal Quliyev 5-6 il ərzində ona və digər ortaqlarına göstərdiyi xidmətlə böyük etimad qazandığı kimi həmin şəxslərin də etimadını qazanıb.

**Sahibkar danışır:** "Belə güclü məmurun himayəsi altına keçdikdən sonra o, bizimlə münasibəti daha da kəskinləşdirdi. Biz ondan səlahiyyətləri alıb müəssisənin əsl rəhbərinə - icraçı direktora verdikdən sonra Kamal MMC-dən çıxmaq qərarına gəldi. Öz payının başqasına satılması bəhanəsi ilə müəssisəyə oğru aləminin adamlarını gətirərək bizi qorxutmağa çalışdı. Bu, baş tutmadıqdan sonra o, götürdüyündən əlavə vəsait almaq məqsədilə təsisçilikdən çıxmaq üçün məhkəməyə müraciət etdi".

**Bundan sonra isə ortaqlar arasındakı münasibətlər tamam pozulub. E.Ağayev hesab edir ki, həmin məmurun təsiri ilə K.Quliyev onlara və ev alanlara qarşı son dərəcə ədalətsiz bir qərarın çıxarılmasına nail olub.**

**Etibar Ağayevin söhbəti:** "Bu il iyulun 2-də Xətai Rayon Məhkəməsinin qətnaməsi ilə MMC-yə məxsus əmlakın çox böyük hissəsinin Kamala verilməsi barədə qətnamə çıxarıldı. Təsəvvür edin ki, 4 təsisçi olmasına baxmayaraq, məhkəmə MMC-nin 120 m2 ofisini də ona verib, bununla da böyük bir kollektivin işlədiyi müəssisənin fəaliyyətinin iflic olması təhlükəsi yaranıb. Məhkəmə müəssisədə mənzil satışına qadağa qoymaqla tikintinin davam etdirilməsi üçün onsuz da çox az qalmış vəsaitin daxil olmasının qarşısını alıb və tikintinin faktiki dayanmasına səbəb olub.

Bəs bu necə ola bilər? Ortada hər birinin 25 faizlik payı olan 4 ortaq var. Onlardan biri ayrılır, hər şeyi götürür, yerdə qalan 3 payçı və mənzil alanlar əliboş, hətta zərərdə qalır".

**Sahibkar şikayətinin məğzini deyir:** "Məhkəməyə göstərilən təsirlər nəticəsində ekspert rəyi alınıb ki, 1 m2 tikinti 350 manata başa gəlir, halbuki tikinti ilə məşğul olan hər kəs bilir ki, bu mümkün deyil. Nümayəndəmizin etirazına baxmayaraq, məhkəmə iş üzrə əlavə ekspertizanın keçirilməsi xahişini rədd edib".

E.Ağayevin sözlərinə görə, bundan başqa, Kamal Quliyev 2016-cı ilin noyabr ayında Nəsimi Rayon Məhkəməsinə müraciət edərək, öz payını 1 600 000 (bir milyon altı yüz min) manata satmaq istədiyini bildirib, ancaq Xətai Rayon Məhkəməsi isə bu tələbdən 4-5 dəfə çox dəyərə malik əmlakın ona verilməsini qət edib.

Burada zəruri dəqiqləşdirməyə ehtiyac var: Sahibkarın bayaqdan bəri sözünü etdiyi naməlum qüdrətli məmur kimdir?

Bu işdə dövlət məmurunun adının hallandırılmasını indilikdə düzgün hesab etməyən sahibkar qeyd edir ki, hər halda, o şəxsdən çox şey asılıdır: onun ya bu işdə əli olduğu bilinəcək, ya da o, qohumlarına və onların ortağı Kamal Quliyevə təsir edəcək ki, onlar ədalətli olsunlar, ortaqlığı halallıqla bitirsinlər, mənzil alanların haqlarını versinlər, məhkəmələrə təsir göstərərək öz xeyirlərinə qanunsuz qərarlar çıxartdırmasınlar.

**E.Ağayev deyir:** "Biz hesab edirik ki, əlavə ekspertlər təyin olunarsa, tərəfimizdən lazımi sənədlər təqdim edilməklə məhkəmələr yeni qərar qəbul edib TVİNS-ART MMC-nin və 500-dən artıq mənzil alanın, eləcə də təsisçilərin haqlarını təmin edəcək".

Sahibkar ümid edir ki, aidiyyəti orqanlar MMC-nin dörd təsisçisinin mənfəətindən çox, 8 girişli binanın tikilib təhvil verilməsinin daha vacib olduğunu anlayacaqlar.

Göründüyü kimi, bu, tikinti maqnatları arasında düşən adi qovğa, intriqa deyil. Burada etibardan sui-istifadəyə, inzibati resurslardan, vəzifə səlahiyyətlərindən yararlanaraq ədalətsiz qərarlar qəbul etdirməyə dair ciddi iradlar var. Ona görə də adları çəkilən və çəkilməyən şəxslərin bu iddialara cavab verməsi lazımdır.

❑ **X.ASİFOĞLU**



# "Bakcell"in dəstəyi ilə "Təhsil Avtobusu-2017" Yay Məktəbi başlayır

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkətinin dəstəyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi, "ENGİN" şirkəti və Kapitalbankın təşkilatçılığı ilə "Azərbaycan üçün Öyrət'' təhsil proqramı çərçivəsində 24 - 31 iyul 2017-ci il tarixində "Təhsil Avtobusu - 2017" Yay Məktəbi keçiriləcək.**

**Yay məktəbinin məqsədi bölgələrdə yaşayan və ya təhsil alan orta ixtisas və ali təhsil müəssisələrinin akademik göstəriciləri orta olan tələbələrin karyera inkişaflarına təsir etmək, onlara informasiya texnologiyalarından karyera inkişafında istifadədə, iş seçimi və axtarışında kömək edəcək bilik və bacarıqlar vermək, eləcə də həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına stimul verməkdir. Yay Məktəbi çərçivəsində bu istiqamətlərdə dərslər, fərdi inkişaf təlimləri və intellektual yarışlar keçiriləcək.**

**Bakı-Quba-Masallı-Sabirabad-Gəncə-Mingəçevir-Zaqatala-İsmayıllı-Bakı marşrutu üzrə səyahət edəcək "Təhsil Avtobusu - 2017" "Bakcell" şirkəti tərəfindən təchiz edilmiş yüksəksürətli internetlə təmin olunacaq.**

**Qeyd edək ki, "Azərbaycan üçün Öyrət'' Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını dəstəkləyərək keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasını təmin edən təhsil proqramıdır.**

**Xatırladaq ki, "Bakcell" eyni zamanda Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində digər qurumlarla da uğurlu əməkdaşlığını davam etdirir. Belə ki, şirkət UAFA (Azərbaycana Birgə Yardım təşkilatı) və "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyi tərəfindən icra edilən müxtəlif layihələrə öz dəstəyini göstərməklə xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında müsbət dəyişikliklər yaratmağa çalışır.**

***

**"Bakcell" haqqında**

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. "Bakcell", Sür@ ticarət nişanı adı altında öz abunəçilərinə ən mükəmməl 3G və 4G mobil internet xidməti göstərir.**

**5300-dən artıq baza stansiyası sayəsində Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. İnnovasiyalar sahəsində lider olan "Bakcell" şirkəti öz Sür@ xidməti və yeni əməkdaşlıqlar vasitəsilə Azərbaycan xalqını ən yüksək səviyyəli mobil internet xidmətləri ilə təmin edir. "Bakcell"in 3G xidməti Azərbaycanın bütün regionlarında mövcud olmaqla əhalinin 93%-ni əhatə edir.**

**"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com ttp://www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-Bakcell abunəçiləri isə 055 0000 555 nömrəsinə zəng etməklə "Bakcell"in xidmətləri haqqında məlumat əldə edə bilərlər.**

**Son günlər dünya birjalarında əlvan metalların qiyməti ucuzlaşıb. COMEX-də sonuncu hərraclarda qızılın unsiyasının qiyməti 1,10 dollar ucuzlaşaraq 1 240,80 dollara, gümüş isə 0,05 dollar azalaraq 16,22 dollara satılıb. Azərbaycanda isə iki aylıq bir durğunluqdan sonra qızıl bazarında canlanma yaşanır.**

# Qızıl bazarı canlanır: səbəb toy-nişanların artmasıdır

## Daş-qaş bazarında rus və türk qızılları daha çox satılır, çünki…






Söhbət əhalinin istifadə etdiyi zinət qızılından gedir. Belə ki, may ayında toy etməyin uğursuzluq olduğunu düşünənlər və Ramazan ayında xeyir işlərini təxirə salanlar bir-birinin ardınca toy etməyə başlayıblar. Nəticədə qızıla tələbat artıb.

Bəs görəsən, bu durum qızıl bazarına necə təsir edib? Manatın məzənnəsinin uzun müddətdir sabit olduğunu nəzərə alsaq, qızıl bazarında da stabillik varmı?

Musavat.com-un müxbiri bu suallara cavab tapmaq üçün "Laçın" ticarət mərkəzindəki qızıl mağazalarına baş çəkib, qiymətlərlə maraqlanıb.

**İstirahət ayları olsa da, ticarət mərkəzinin qızıl şöbəsində, piştaxtaların qarşısında kifayət qədər alıcı gözə dəyir. Digər aylardan nisbətdə yay aylarını qızıl bazarının qaynar dövrü saymaq olar. Satıcılar da bunun səbəbini insanların yay fəslində toy-nişan etməyə üstünlük verməsi ilə izah edirlər:** "İsti aylarda adətən müştərilər çox olur. Yay aylarında xanımlar qızıl-zinət əşyalarına üstünlük verilir. Bu isə geyimlə əlaqəlidir. Daha çox açıq geyimlər geyildiyindən qızıl aksesuarlarının istifadəsi rahat olur. Qış aylarında isə qızıl bazarında durğunluq yaranır. Çünki qış geyimində qızıldan çox az istifadə olunur. İndi gün ərazində 5 müştərim olursa, qış aylarında bu say 1-ə enir. Qışda icarə haqqını və gündəlik xərcimizi güclə çıxarırıq. Yayda toy edənlərin də sayı artır, toy isə ilk növbədə qızıla tələbat deməkdir ".

**Satıcı Gülmirə Salayeva bazara gələn müştərilərin rus və türk qızıllarına üstünlük verdiklərini bildirdi:** "10 ildir ki, burada çalışıram. Bizim mağazalara gələn müştərilər adətən orta təbəqənin insanlarıdır. Bu səbəbdən də ucuz mala, rus qızılına daha çox üstünlük verirlər. Onu da deyim ki, görünüşündə və keyfiyyətində heç də seçilmir. Rus qızılı türk və İtalyan qızılından 15-20 manat ucuzdur. Hazırda rus qızılının alış qiyməti 40-42 manat, satışı isə 53-55 manat, türk qızılı 60 alışı, satışı 65, İtalyan qızılının alışı 62 manat, satışı isə 72 manatdır. Açığını desəm, italyan qızılını daha çox elit təbəqədən olan insanlar alır. Ancaq tələbat çox olduğundan bizim əsas gəlirimiz rus qızılındandır".

Qızıl bazarında qiymətinə görə ərəb qızılı liderlik edir. Ərəb qızılını baha edən tərkibinin 97 %-nin xalis qızıldan olmasıdır. Ərəb qızılının qramı 80-100 manat arasında dəyişir. Bahalı olduğundan bu qızıla tələbat da azdır. O baxımdan, çox az satıcı bazara ərəb qızılı gətirməyə risk edir.

**Satıcılardan biri deyir ki, bu, böyüklükdə bazarda ərəb qızılını yalnız özü satır:** "Qızıl bazarında ərəb qızılının satışı ilə yeganə olaraq mən məşğul oluram. Ərəb qızılları bahalı olduğundan müştərisi də azdır. Ona görə də heç kim bu işə baş qoşmaq istəmir. Təbii ki, öz müştərilərimiz var. Bu qızılların da öz həvəskarları var. Rəng və görünüş baxımından da digər qızıllardan fərqlidir. Qiymətlərində də çox fərq var. Misal üçün, ərəb qızılından olan qolbaq 4-5 min manatdır. Qadın üçün 34-40 qramlıq boyunbağılar isə 3500-4000 min manatdır. Onu da deyim ki, bu qolbaqlar və boyunbağılar digər univermaqlarda minimum 6-7 min manatdır. Eyni qızıl olsa da, şəhərin mərkəzində bahadır. Bunun səbəbi piştaxtaların icarə haqqı ilə əlaqəlidir. Bizdə 1000 manata olan yerhaqqı orada 3 min manatdır. Onu da bildirim ki, Mərkəzi Univermaqda olan zinət əşyalarının çeşidi daha çoxdur. Həm də oraya şəhərin ən elit təbəqəsindən olan alıcılar gedir".

**Satıcıların sözlərinə görə, bazarda qızılın topdansatışı da həyata keçirilir:** "Qızıl bazarında topdan qızıl satışı həyata keçirənlər də var. Qızıl lazım olan zaman həmin yerlərdən alıb, pərakəndə satırıq. Türk və İtalyan qızılının qramını 30-32 dollardan, yeni manatla 58-60 manata alıb, üstünə 10-15 manat qoyub satırıq. Lakin bu, məcburi deyil, qızılı özün də gətirə bilərsən. Ancaq bu bizim kimi satıcılara sərf etmir. Topdansatışla məşğul olanlar isə qızılı xaricdən 26-28 dollardan alırlar".

Satıcılar onu da bildirdi ki, qızılın qiyməti gündəlik olaraq dəyişir. Dünya bazarında qızılın unsiyası bahalaşanda, Bakıda da qiymətlərə təsir edir. Ümumilikdə isə qızılın qiyməti tədricən cüzi qiymət artımları ilə bahalaşmağa doğru gedir.

Qızıl alıcıları ilə yanaşı, zinət əşyalarını satışa çıxaranların da sayı artıb. Satıcılar deyir ki, əhalinin güzəranının ağır olması bəziləri zinət əşyalarını satmağa vadar edir. Qızılını satanlar arasında Rusiyadan gələn vətəndaşların da sayı kifayət qədərdir.

❑ **Məğrur MƏRD**

# Heydər Camalın vəfatının və dəfninin müəmmaları - yeni məqamlar



**Böyük filosof, teleekspert, "Rusiya İslam Komitəsi"nin sədri Heydər Camal, yadıma gəlir, bir dəfə özü barəsində çox sərrast, zərgər dəqiqliyi ilə ölçülən bir şairanə ifadə işlətmişdi: "İki səmanın qartalıyam. Həm fiziki dünyada qanad çalıb pərvazlanıram, həm metafizik dünyada".**

Ancaq 6 dekabr 2016-cı ildə bu iki səmanın qartalı axır bu göylərdən birini tərk etməyə məcbur qaldı. O, Almaatıda, Türk dünyasının göbəyində, Tanrı dağlarının ətəklərində gözlərini əbədi olaraq qapadı. Elə ordaca xudmani, kiçicik "Baqanaşıl" məzarlığında torpağa tapşırıldı.

**Bu ilin 15 iyulunda Heydər Camalın məzarı üstə xatirə abidəsi ucaldılıb. Sosial şəbəkələrdə mərasimin videogörüntüləri paylaşdırılıb. Məzar üstə əvvəlcə mərhumun oğlu Orxan Camal çıxış edib, ardınca tanınmış telejurnalist, aparıcı Maksim Şevçenko. Sonuncu, öz nitqində bəzi vacib məsələləri vurğulayıb:** "Heydər bilirdi ki, tezliklə dünyasını dəyişəcək. Bir növ növbəti, məcazi "həcc" səfərinə hazırlaşırdı. Məzar daşının eskizini özü çəkmişdi. Rəhmətliyin yaxşı rəssam zövqü, əl qabiliyyəti vardı. Unutmayaq ki, rəhmətliyin atası Cövdət Camal öz dövrünün məşhur fırça ustalarındandı. Əlində fırça tutmağı Heydərə görünür, o, öyrədibmiş... Biz - Heydərin tələbələri buranı özümüzə mənəvi paytaxt bilirik. Ölən günümüzəcən buranı ziyarət edəcəyik".

**Mərhumun oğlu Orxan Camal öz çıxışında mövzunu bir az da dəqiqləşdirib. Kadr arxasında qalan bəzi gizlinlərin üstünü açıb:** "Abidənin pulunu Almaatı camaatı öz arasında toplasa da, əsas yük düşdü, təbii, Azərbaycan diasporu üzərinə. Hamıya "çox sağ ol!" deyirik. Bu ünvanda görüşlərimiz həmişə davam edəcək"

Sonrakı videokadrlarda mərhumun həyat yoldaşı Gülnar Camal ilə qızı Kövsər görünür. Məzardaşına sarılmış xanımlar bir an Heydər üçün göz yaşlarını töküb, sonra jurnalistlərdən israrla xahiş edirlər videokameranı söndürsünlər.

***

Ancaq məndə belə bir fikir yarandı ki, abidənin, mərasimin bütün cari xərclərini təkcə elə yuxarıda adıçəkilən iki ünvan ödəməyib. Əsas xərcləri rəsmi Bakı, Azərbaycan çəksə də, üzdə bunu bizim diaspor təşkilatımızın ayağına yazıblar. Niyə? Səbəbi bilinmir.



***

Heydər Camalın Almaatıda vəfatı elə ilk saniyələrdən sual doğurub çoxlarında: "Niyə məhz Almaatıda?... Bəlkə onu?... Rəsmi Kreml Heydərin Moskvadakı dəfn mərasimindən qorxurmuş bəyəm?"

Nə isə... Ortada ciddi ziddiyyətlər var.

Heydərin Almaatıdakı dəfni əvvəlcə rəsmi Qazaxıstan dairələrini də hürküdüb. Əvvəlcə mətbuata xəbər ötürülüb ki, bəs guya Heydərin dəfni məşhur panteonda, "Kensay-2" məzarlığında (bizim "Fəxri Xiyaban-2" analoqunda) sabah saat filan-filanda baş tutacaq. Göstərilən ünvana vaxtı-vaxtında çox sayda Heydərsevərlər gəlsə də, qəfil xəbər səslənib ki, bəs dəfn burda deyil, başqa yerdə baş tutacaq. Nəticədə məzar üstə elə də tünlük olmayıb. Mərkəzi Almaatı məscidində bir növ səfərbər edilmiş mülkü geyimlilər Heydərin cəsədini çiyinləri üstə Baqanaşıl məzarlığına gətirib, buradaca becid-becid, təcili torpağa tapşırıblar.

***

Heydər Camalla Rusiya hüquq-mühafizə qurumları arasındakı ziddiyyət əvvəllər bir o qədər olmasa da, 27 mart 2012-ci ildə vəziyyət kökündən dəyişir. Məhz həmin tarixdə Rusiya Federal Təhlükəsizlik Xidməti əməkdaşları Heydər Camalın yaşadığı ünvana səhər saat 7-də gəlib qapını möhkəmcə döyəcləyirlər. Heydər mənzilində axtarışa razılıq versə də, müstəqil şahid tələb edir. Rusiya İctimai Palatasının üzvü Maksim Şevçenko qapıya gələnə qədər Heydər əlində balta, külüng öz mənzilinə xəfiyyələri buraxmır.

Ancaq bu tarixdən sonra Heydər Camalın sanki Rusiya mass-mediasında qol-qanadını qırırlar. Çıxışlar, nitqlər əvvəlki intensivliyini, ünvanlarını itirir. Sonra xəbər gəlir ki, bəs Heydər bərk xəstədi... Ölümünə az qalıb. Tezliklə onun ağrı-sancıları dözülməz dərəcədə artır. Bu vaxt Almaatıdan xəbər gəlir bəs burda yaxşı həkimlər var. Ağrıları, sancıları sıfıra endirəcəklər. Heydəri təcili Almaatıya gətirin...

***

**Heydərin ideoloji rəqibi Avraam Şmuleviç görün bir bütün bu müəmmalara axır hansı məna verib Moskva saytlarının birində:**

"Heydərin xəstəliyi barədə heç bir həkim rəyi yoxdu. Tibbi ekspertiza keçirilmədən onu təcili torpağa tapşırıblar... Hmm... Bu, bəzi suallar doğurur. Cəsədi də öz gözü ilə çox məhdud sayda şahidlər görüb. Onlar da susmağa üstünlük verirlər. Maksim Şevçenkonun dəfn zamanı Almaatıda olmamağı qəribə göründü mənə...Nə isə..."

***

Ancaq Avraam Şmuleviçin "qara otaqda qara pişik axtarışları" əbəsdi. Heydər Camal çoxdan - 2006-cı ildən üzübəri bərk xəstə idi. Ağrıları əvvəllər büruzə verməmək mümkün idi. Sonra bu, müşkülə çevrildi. Heydərin şah duruşu əyildi göz görə-görə. O, məcbur qaldı əlinə əsa götürsün. Sonra isə...

***

**Heydərin vəfatından sonra da rəsmi Bakı onun ailəsinə, irsinə, mirasına, yaxın ətrafına öz qayğısını əskiltməyib. Əksinə, artırıb bəlkə də.**

**Məzarı üzərində anıt abidənin inşası buna əyani sübutdu.**

**Mərasimin son görüntüləri: https://www.youtube.com/watch?v=4Obt-PVS-H4 ttps://www.youtube.com/watch?v=4Obt-PVS-H4**

❑ **Həmid HERİSÇİ**

Yeni MÜSAVAT

Son səhifə

*N 153 (6767) 22 iyul 2017*



# Ayı yatan qadını oyadıb və...

**Amerikanın Ayxado ştatında qara ayı meşədə yatan turistə hücum edib. Balıqlar və ovçuluq işi üzrə departamentin xəbərinə görə, turistlər heyvanı bir neçə gün öncədən fərq ediblər və onu düşərgədən qova biliblər. Növbəti gecə isə o, geri qayıdıb. Ayı geri qayıdan gün yuxu torbasının içində yatan turistin ayağını dişləri ilə dartıb. Turist qadın oyanıb qışqırmağa başlayan kimi, qorxmuş ayı meşəyə qaçıb.**

Departamentin nümayəndəsi Aleks Hed isə deyib ki, turist qadın heç bir travma almayıb: "Yuxu torbasına da heç bir zədə dəyməyib. Amma onun üstündə ayının seliyi yayılıb".

Departament işçiləri narahatdılar ki, ayı yenidən qayıda bilər. Turistlərə həmin rayonda gecə qalmağı qadağan ediblər. Bundan başqa, meşədə də ayılar üçün tələlər qurulub. Az sonra isə xəbər yayılıb ki, Koloradoda uşaq düşərgəsinin gözətçisinə hücum edən ayını vurublar. Heyvan cavan oğlanı başından tutub və meşəyə doğru aparıb. Kişi çətinliklə də olsa canını xilas edə bilib.

Qara ayı Qərbi Amerikada çox geniş yayılmış ayı növüdür. Bu heyvanın yaşlısının hündürlüyü 1.4-2 metrə yaxındır və 360 kilo çəkisi var. Bu növün nümayəndələri çox nadir halda insanlara hücum edirlər.

# Facebooka görə ərindən boşandı

**Türkiyənin İzmir şəhərində A.T ad-soyadlı bir qadın əri sosial şəbəkədə çox vaxt keçirdiyi üçün boşanmaq üçün məhkəməyə müraciət edib. O, şikayət ərizəsində bildirib ki, əri də narkomanlar və siqaret aludəçiləri kimidir, sosial şəbəkədən asılı vəziyyətdədir. Onun yazdığına görə, 47 yaşlı əri səhər açılandan gecə saatlarına qədər sosial şəbəkədə vaxt keçirir, paylaşımlar edir, statuslara rəy bildirir.**




Yarım ildir ki, işsiz olan kişi nə evin problemlərini həll etməyə qadirdir, nə də ailəsinə vaxt ayırır: "O deyir ki, sosial şəbəkədən ayrı keçirdiyim hər dəqiqəni itki hesab edirəm. Bu isə xəstəlik səviyyəsinə çatmış insan deməkdir. Mən onun bu asılılıqdan qurtulması üçün hər cür fədakarlıqlar etməyə hazır idim. Hətta psixoloq yanına gedib, bunu tibbin köməyi ilə həll etmək də olardı. Amma o, buna heç cür yaxşı baxmır və hesab edir ki, bu, bir həyat tərzidir. Əgər o, elə hesab edirsə, demək, qurtuluş yoxdur".

# Üzündəki tatuirovkaya görə iş tapa bilmir

**Yeni Zelandiyada türmədən yeni çıxan bir gənc üzündəki tatuirovkaya görə özünə iş tapa bilmir. Lenta.ru saytının xəbərinə görə, üzündə DEVAST8 sözü yazılmış tatuirovka olub ki, bunun da tərcüməsi "boşalmış" deməkdir. 19 yaşlı Mark Kropun bu tatuirovkasını qonşu kameradakı dostu edib. Gənc adamı silahlı basqına görə həbs ediblər. Qeyd olunur ki, tatuirovka daha kiçik ölçüdə yazılmaq üçün nəzərdə tutulsa da, məhbuslar içdiyi üçün ölçünün ayarını da qaçırıblar.**

Krop türmədən çıxandan sonra üzündəki tatuirovkaya görə iş tapmaq məsələsi çətinləşib. Dediyinə görə, müraciət etdiyi iş yerlərinin sahibləri üzündəki bu yazını görüb, ona gülüşlə cavab verir və ona qarşı ironiya ilə yanaşırlar. Bir neçə belə rədd cavabından sonra Yeni Zelandiya sakini öz problemi barədə facebook sosial şəbəkəsində yazıb. Kişinin yazdığı status 380-nə yaxın layk yığıb.

Yeni Zelandiyadakı kampaniyalardan biri Koppa üzündəki tatuirovkanı lazerin köməyi ilə təmizləməyi təklif edib. Kişi razılaşıb və iş axtarışına bu prosedurdan sonra hazırlaşır.





# Qadınlar bu mahnıya qulaq asıb, stresdən azad olurlar

**İngilis alimlər "Morconi Union" musiqi qrupunun köməyi ilə qadınlarda stressi azaldan musiqi yaradıblar. "Veightless" adlı mahnı dünyada ilk dəfə məhz qadınların stressini azaltmaq üçün nəzərdə tutulub. İngiltərənin Səslə Müayinə Akademiyasının rəhbəri sözügedən mahnıdakı ritmlərin qadınların ürək döyüntülərini azaltdığını deyiblər. Təcrübə zamanı məlum olub ki, qadınlara dinlədilən bu mahnı onların stresini 11 faiz azaldır. Digər mahnılar isə 65 faiz qadınların narahatlığını artırır, 35 faizi isə istirahət etməsinə səbəb olur. Gitara və piano ilə bəstələnən mahnılar stresi daha da azaldır.**




**QOÇ** - İşgüzar sövdələşmələr aparmaq istəyirsinizsə, bürcünüzün bu son təqvimindən yararlanın. Əmin olun ki, hər şey ürəyinizcə olacaq. Sadəcə, qərarlarınızda reallığa əsaslanın.

**BUĞA** - Hiss olunur ki, maddi durumunuz qənaətbəxş deyil. Bu isə əksər sahələrdə passivliyinizə zəmin yaradır. Buna baxmayaraq, nahardan sonra ikitərəfli əməkdaşlıq üçün şanslarınız olacaq.

**ƏKİZLƏR** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşacağınızdan xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd işlərdən yayınmalısınız. İşgüzar əlaqələrə başlayın.

**XƏRÇƏNG** - Ay bürcünüzdə olduğu üçün o qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər.

**ŞİR** - İyulun bu gününü uğurlu keçirəcəksiniz. Şəxsi işlərinizdə dönüş yaratmaq üçün saat 15-dən sonra şanslarınız olacaq. Büdcənizi artırmaq istəyirsinizsə, əzmkarlığınızı artırın.

**QIZ** - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki gələcək perspektivləriniz iyulun bu təqvimindən birbaşa asılı olacaq. Pul sövdələşmələrində ötkəm olun.

**TƏRƏZİ** - Saat 13-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə, əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələr gözlənilir. Yaxşı olar ki, səfərə çıxasınız.

**OXATAN** - Ümumi gərginliyinizə baxmayaraq çıxış yolu tapmağa davam etməlisiniz. Hər şeyi dəqiqliklə ölçüb-biçməli, ağıllı məsləhətlərə qulaq asmalısınız. Uzaq səfərlərə çıxmağa dəyər.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Nahardan sonra səfərə çıxmağa dəyər.

**SUTÖKƏN** - İstifadə etdiyimiz bütün astroloji mənbələr bu təqvimi bütünlüklə səfər və qonaqlıqlara həsr edəcəyinizi göstərir. Yeni müsahiblərinizə qarşı bir qədər mülayim davranın.

**BALIQLAR** - Yaxşı olar ki, heç bir ciddi işə baş qoşmayasınız. Əks təqdirdə, uğursuz cəhdlərlə rastlaşacaqsınız. Bununla yanaşı, sizə qarşı qərəz nümayiş etdirənlərə kəskin cavab verməyi də təxirə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çox təriflənən uşaqlar... stressə girir



**İngilis, holland və amerikalı alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, uşaqları çox tərifləmək onlara yaxşı təsir etmir. Mütəxəssislərin sözlərinə görə, onlar 240 uşaq arasında sorğu keçiriblər.**

Uşaqlar valideynləri onları tərifədikcə məsuliyyətlərinin daha da artdığını və bunun onları stressə saldığını deyiblər. Məhz bu səbəbdən də pediatrlar uşaqları həddən artıq tərifləməyin doğru olmadığını və uşaqları sərbəst buraxmağın onlar üçün daha yaxşı olduğunu deyiblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100